YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 aprel
2026-cı il,
şənbə
№ 061 (7128)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Cənubi Qafqaza sülh gətirən Vətən müharibəsi...



## Ali Baş Komandan: Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq

Bax səh. 3

## Müasir dövlətçiliyimizin unikal sərvəti - multikultural ənənələr...

Bax səh. 3

## Milli Məclisin iclasında... 11 qanun layihəsi müzakirə olunub

Aprelin 10-da Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 11 qanun layihəsinin müzakirəsi daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin martın 24-dən 26-dək Çin Xalq Respublikasına işgüzar səfəri barədə məlumat verib. Səfərdə məqsəd Asiya naminə Boao Forumunda iştirak etmək idi. Onun sözlərinə görə, Forum Asiya-Sakit Okean regionunun 26 ölkəsi tərəfindən 2001-ci ildə təsis edilib, sonradan daha 3 ölkə onlara qoşulub. Azərbaycan bu tədbirə xüsusi qonaq kimi dəvət olunub.

**Spiker: Çinə işgüzar səfər uğurlu oldu**

S.Qafarova Asiya naminə Boao Forumunun İllik Konfransında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının sədri Si Cinpinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan-Çin münasibətlərindən danışdığını söyləyib. Çıxışda Çin tərəfindən irəli sürülən və Azərbaycan tərəfindən dəstəklənən qlobal təşəbbüslərin əhəmiyyəti vurğulanıb, Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyi, “Bir Kəmər, Bir Yol” layihəsinin inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyi diqqətə çatdırılıb. Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir. “Azərbaycanla Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları...

Bax səh. 3



## 3-cü iclas...

Bax səh. 4

## “İkipilləli Buraxılış Sistemi”

Bax səh. 4

## Dünya Bankından yeni hesabat

Bax səh. 5

## Asiya İnkişaf Bankının yeni ssenariləri

Bax səh. 5

## “Pasxa atəşkəsi” elan edildi

Bax səh. 7

## Qala divarının qorunmasına həssas yanaşma

Tariximizin yaddaşı olan İçərişəhər ərazisində Qala divarının bir hissəsində baş vermiş qismən dağılma ilə bağlı dərhal operativ tədbirlər görülməsinə başlanıb. Bu barədə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi məlumat yayıb.

Bildirilib ki, hazırda əraziyə yüksək ixtisaslı mütəxəssislər cəlb olunub. Mütəxəssislər qrupu uzun illər beynəlxalq təcrübəyə malik olmaqla yanaşı, Azərbaycanda da bir sıra mühüm tarixi abidələrin bərpasında iştirak ediblər. Onların müxtəlif vaxtlarda həyata keçirdikləri bərpa layihələri sırasında Qız qalası, Qoşa Qala qapısı, Şirvanşahlar Sarayı Kompleksi və digər mühüm abidələr yer alır.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu bütün abidələri, o cümlədən də qala divarı ilə birlikdə ölkəmizin ən mühüm tarixi-mədəni irs nümunələri sırasına daxildir. İçərişəhər çoxəsrlik mədəniyyətimizin rəmzlərindəndir. Ölkəmizin orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarı olan bu unikal məkandakı Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, məscidlər, karvansaralar, qala divarı və digər tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir.

İçərişəhər ümummilli lider Heydər Əliyevin diqqəti və qayğısı nəticəsində 1977-ci ildə tarix-memarlıq qoruğu statusu alıb, 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib...

Bax səh. 5



# Diqqət İslamabada!

Bax səh. 6

# Müasir dövlətçiliyimizin unikal sərvəti - multikultural ənənələr...



Azərbaycan hər cəhətdən nümunəvi olan multikultural mühitə malikdir. Ölkəmizdə milli-dini zəmində hər hansı bir ploblem yaşanmır. Xristian dünyasının müqəddəs bayramı olan və dirçəlişi, yeniliyi, mərhəmət və xeyirxahlıq duyğularını simvolizə edən Pasxanın Azərbaycanda yüksək səviyyədə qeyd edilməsi bunun əyani təsdiqidir.

Yaranmış gözəl ənənəyə uyğun olaraq cari ildə də respublikamızda Pasxa bayramı münasibətilə çoxsaylı tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev aprelin 9-da Azərbaycanın pravoslav xristian icmasına Pasxa bayramı münasibətilə təbrik ünvanlayaraq Özünün xoş arzularını çatdırıb. “Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm”, - deyə təbrikdə vurğulanıb.

## Dünyanın ciddi narahatlıq doğuran mənzərəsi

Hazırda sivilizasiyanın yüksək mərhələsinə çatan bəşəriyyət eyni zamanda bir sıra ciddi sınaqlarla üzləşib. Dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Bu gün beynəlxalq miqyasda sülh və təhlükəsizliyə yaranan təhdidlər heç vaxt olmadığı qədər artıb. Ən yüksək auditoriyaların tribunalarından tez-tez səsləndirildiyi kimi, hazırda dünyamız heç vaxt olmadığı qədər parçalanmış görünür.

Artıq onilliklərdir ki, Yaxın Şərq müharibə girdabından çıxa bilmir. Qanlı savaşlar, imperialist güc mərkəzlərindən ixrac olunan xaos, rəngli inqilablar ayrı-ayrı xalqların dövlətçilik ənənələrini pozub, bir vaxt çiçəklənən şəhər və kəndlər dağıdılıb, ölkələrin sərvətləri talanır. Son illərdə Qəzzada insanlıq faciəsi yaşandı və hələ də bu faciənin fəsadları davam edir. Çox qısa müddətdə aralarında uşaqlar, qadınlar və qocalar da olmaqla təxminən 70 min insanın həyatına son qoyulub, on minlərlə yaralı var. Sağ qalanlar ən zəruri ehtiyaclardan belə məhrumdurlar. Münaqişənin aktiv fazasında hətta humanitar dəhlizlər belə qəddarcasına atəşə tutulur, insanlara ərzaq məhsulları bir sıra hallarda havadan atılaraq çatdırılırdı.

Digər bir münaqişə ocağının - Rusiya-Ukrayna müharibəsinin də sonu görünmür. Yenə də on minlərlə ölü və yaralı sayı. Milyonlarla insan doğma ev-eşiyini tərk etmək, ağır qaçqınlıq taleyi yaşamaq məcburiyyətində qalıb. Müharibənin alovlanmasına isə güc mərkəzlərinin qarşıdurması, geosiyasi maraqları olub. Hazırda vəziyyət o həddədək gərginləşib ki, tərəflər daha genişmiqyaslı müharibənin, hətta nüvə təhdidlərinin anonsunu edirlər.

Son günlərdə isə dünya İran-ABŞ -İsrail müharibəsinin şokunu yaşamaqdadır. İranın şəhərləri, hərbi və mülki infrastrukturu amansız şəkildə hücumlara məruz qalaraq dağıdılıb, yüzlərlə insan həyatını itirib. Hörmüz boğazının təhdidlərə məruz qalması qlobal təchizat zəncirini pozub. Elan olunan iki həftəlik atəşkəs isə çox kövrəkdir. Bəhs olunan müharibə ilə əlaqədar həmçinin Yaxın Şərqin bir sıra digər ölkələri də dağıdıcı raket hücumlarına məruz qalıb. Livanda isə vəziyyət daha kritikdir.

Dünyanın olduqca narahat mənzərəsinin digər bir mühüm əlaməti mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya peredmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan Qərbdə bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, islamafobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Açıq statistikaya görə, dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrinin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində, o cümlədən Fransada, İsveçdə, Danimarkada, Niderlandda müqəddəs kitabımız “Qurani-Kərim”in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir ki, bu da qəbuledilməzdir.



**Azərbaycanın dövlət başçısı İlham Əliyev dünyada multikulturalizmə davamlı şəkildə çağırış edən azsaylı liderlər sırasında yer alır. Başqa dinlərə, mədəniyyətlərə sayğılı münasibət bəslənilməsi Azərvbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respulikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır**

## Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də insanların həyat tərzidir

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın reallıqları tamam fərqli rakursdan diqqət çəkir. Azərbaycanın dövlət başçısı İlham Əliyev dünyada multikulturalizmə davamlı şəkildə çağırış edən azsaylı liderlər sırasında yer alır. Başqa dinlərə, mədəniyyətlərə sayğılı münasibət bəslənilməsi Azərvbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respulikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır. Cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılıb. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqların təmsilçiləri ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Azərbaycan, həmçinin dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir və birgəyaşayışa çağırışlar edir. Prezident İlham Əliyev 2008-ci ildə sonradan bütün dünyada Azərbaycanın brendinə çevrilən “Bakı prosesi” təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs çərçivəsində Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa İttifaqının yüksəksəviyyəli rəsmilərini Bakıda bir araya gətirməyə və faydalı dialoq qurmağa nail olub. Bu prosesin tərkib hissəsi olaraq paytaxtımız Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna müntəzəm qaydada ev sahibliyi edir. Ölkəmizin mənzərəsini ümumiləşdirsək, belə deyə bilərik: Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də insanların həyat tərzidir. Respublikamızın reallıqlarına diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: “Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk”.

**Prezident İlham Əliyev aprelin 9-da Azərbaycanın pravoslav xristian icmasına Pasxa bayramı münasibətilə təbrik ünvanlayaraq Özünün xoş arzularını çatdırıb. “Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm”, - deyə təbrikdə vurğulanıb.**

Əlamətdar haldır ki, ölkəmizdə geniş əhatə dairəsinə malik olan multikulturalizm siyasətinin həyata keçirilməsində Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da fəal şəkildə iştirak edir. Fond indiyədək qurumun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxt Bakıda və regionlarda həm İslam dininə, həm də digər mədəniyyətlərə aid tarixi abidələrin bərpasını uğurla həyata keçirərək inanclı insanların istifadəsinə verib. Heydər Əliyev Fondu, həmçinin dünyanın ayrı-ayrı ölkələrində, o cümlədən də Vatikanda bir sıra tarixi-dini abidələrin bərpasını öz üzərinə götürərək onlara ikinci həyat bəxş edib

Faktlardan da göründüyü kimi, ölkəmizdə bütün dinlər qayğı ilə əhatə olunub. Təbrikində Prezident İlham Əliyevin bildirdiyi kimi, hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır. “Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər”, - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz FEYZLİ*

# Cənubi Qafqaza sülh gətirən Vətən müharibəsi...

## Ali Baş Komandan: Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq



Sirr deyil ki, qlobal dünyada siyasi münasibətlər, iqtisadi sistem, ticari əlaqələndirmələr yenidən şəkillənir. Yeni nizamın daha oturaqlı və davamlı olması üçün isə siyasi sabitlik, iqtisadi inkişaf əsas predmetlər kimi ön plana çıxır. Adıçəkilən iki amil kompleks şəkildə qlobal təhlükəsizliyin aparıcı şərtləri kimi xarakterizə olunur. Başqa sözlə, yeni çağırışlar məhz təhlükəsizliyin təmini üzərindən daha aktiv şəkildə təmin edilə bilər.

Buna mane olan ən əsas problem isə qlobal təhdidlər - daha doğrusu, son illərdə silsiləli şəkildə artan regional konfrantasiyalar, müharibələr, qarşıdurmalardır. Yeni siyasi nizamı həm də güc balansının dəyişməsi, yeni strateji konsolidasiya mərkəzlərinin formalaşdırılması kimi qəbul edən dövlətlər öz siyasi maraqlarını uzunmüddətli, hətta sonsuz görünən, nəticəsiz və yorucu, paralel olaraq isə dağıdıcı, və risqləri artıran müharibələr üzərindən təmin etməyə çalışırlar. Bu isə bütövlükdə qlobal sistemin zəifləməsinə, iqtisadi geriləməyə, ticari əlaqələrin qırılmasına, təhdid altına düşməsinə səbəb olur.

**Sabitliyə və inkişafa mane olan müharibələr...**

Müharibələr mahiyyət etibarı ilə fərqli anlam daşıya bilir. Məsələn, 4 ildir ki, davam edən Rusiya -Ukrayna müharibəsi bütövlükdə Avropa qitəsi üçün olduqca mənfi təzahürlər formalaşdırıb:

- İlk növbədə qitə üzərində hərbi təhdid formalaşdırıb;
- İqtisadi düzəni pozub;
- Enerji təminatı prinsiplərini yenidən formalaşdırıb.

Bu siyahını fərqli detallar üzərindən daha da genişləndirmək olar. Amma tək hərbi təhdid amili ümumi yaşam ritminin pozulmasına mənfi təsir göstərən detal kimi böyük əhəmiyyət daşıyır. Bu gün Avropa qitəsi bu və ya digər formada bütün məsələlərə iqtisadi potensialın inkişafından daha çox hərbi təhlükəsizlik prizmasından yanaşmaq məcburiyyətindədir. Həlledə sonu görünməyən döyüşlər isə mövcud infrastrukturların sıradan çıxmasına səbəb olub. Bütün bunların bərpası və ya yenidən qurulması isə həm zaman, həm enerji, həm də maliyyə deməkdir.

Eyni fikirləri Yaxın Şərq müharibəsi üzərindən də təhlil etmək mümkündür. 38 gün davam etmiş, hazırda isə yalnız ehtimallar üzərindən formalaşan danışıqlar və ya atəşkəs formatında nəticələnməsi üçün səy göstərilən müharibə qısa zamanda özünün mənfi təzahürlərini ortaya qoydu. Hətta bu müharibənin də asan şəkildə "finala" yaxınlaşması proqnozlaşdırılmır. Bu müharibə də nəticə etibarı ilə istər qlobal iqtisadiyyata, istərsə də qlobal siyasətə (bütün komponentlər üzrə) böyük ziyan vurdu.

Beləliklə, hazırda dünyanın bir çox bölgəsində davam edən münaqişələrin, müharibələrin dünyada sabitliyi və təhlükəsizliyi təhdid edən ən başlıca problem olması faktı növbəti dəfə təsdiqlənir.

**30 illik təhdidə qarşı - Bakı hər zaman sülh axtarışındadır**

Amma müharibələr var ki, tam əks effektə malikdir. Məsələn, 44 gün davam edən və Azərbaycanın mütləq qələbəsi ilə nəticələnən 2020-ci il Vətən müharibəsi:

- Tarixi ədaləti bərpa etdi;
- Beynəlxalq hüququ təmin etdi;
- Regiona sabitlik və sülh gətirdi;
- Yeni iqtisadi konfiqurasiya formalaşdırdı;
- Qitələrarası əlaqələrin və intqerasiyanın daha da dinamik forma almasını şərtləndirdi;
- Regional təhlükəsizlik arxitekturasını gücləndirdi.

XX əsrin son onilliyində Ermənistanın yürütdüyü təcavüzkar siyasət, Azərbaycan torpaqlarını işğal etməsi Cənubi Qafqaza bütövlükdə "təhdid coğrafiyası" mahiyyəti "qazandırdı". Bakı isə illərlə məhz yuxarıda sadalanan yeni reallıqların təmini uğrunda mübarizə apardı. Təəssüflədirici haldır ki, sadalanan bütün bu yeni reallıqlar danışıqlar və sülh nəticəsində əldə olunmadı. Bunun da günahı qarşı tərəfdə - 30 ilə yaxın işğal siyasəti yürüdən Ermənistanda idi. Rəsmi Bakı 30 ildən artıq davam etmiş işğal siyasətinin aradan qaldırılması, məsələnin sülh və danışıqlar yolu ilə ədalətli həllinə nail olunması istiqamətində yorulmadan səy göstərdi. Ermənistanın qeyri-konstruktiv mövqeyi isə buna mane oldu. Bununla yanaşı, problemin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün planlaşdırılan beynəlxalq mexanizmlər də işə salınmadı - məsələnin həllində vasitəçilik missiyasını üzərinə götürən dövlətlər və təşkilatlar prosesə qeyri-adekvat yanaşma sərgilədilər. Məsələn, konkret olaraq Ermənistan ilə Azərbaycan arasında problemin həllində vasitəçilik missiyasının yerinə yetirilməsi üçün yaradılmış ATƏT-in Minsk Qrupu nəinki öz işinin öhdəsindən gəlmədi, əksinə, hətta müəyyən dövrlərdə həll prosesinə əngəl, status-kvonun davam etməsinə şərait yaratdı. Bundan "ruhlanan" Ermənistanın siyasi rəhbərliyi yeni işğal planlarından bəhs açmağa başladılar. Beləliklə, Azərbaycan ərazi bütövlüyünün bərpası ilə yanaşı Cənubi Qafqazda ümumi inkişaf tempinə təhdid yaradan amilin aradan qaldırılması, təhlükəsizlik arxitekturasının gücləndirilməsi, bölgənin iqtisadi potensialının açılması, strateji imkanların genişləndirilməsi üçün qətiyyətli addımlar atmaq zərurətindən qaldı - 44 günlük Vətən müharibəsi bütün bu nəticələrə yol açdı.

**Ali Baş Komandanın qətiyyəti, xalqın dəstəyi, ordunun gücü...**

Azərbaycanın müasir tarixinin ən böyük uğuru şəriksiz olaraq Qarabağ müharibəsində əldə olunan qələbəmizdir. 2020-ci il Vətən müharibəsi Prezident İlham Əliyevin əzmli, qətiyyətli siyasətçi və dövlət başçısı olmaqla yanaşı, güclü strateq, hərbi incəlikləri ən yüksək səviyyədə təhlil edərək qərar verən lider olduğunu bir daha sübut etdi. Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini ortaya qoydu - Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın Silahlı Qüvvələri qısa müddətdə Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi.

Bu tarixi Zəfər isə bir həqiqətin üzərinə növbəti dəfə işıq saldı - Prezident İlham Əliyev modern cəmiyyətdə lider obrazının ən mühüm keyfiyyətlərini özündə birləşdirən şəriksiz liderdir. Dövlət başçısı dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin milli-strateji maraqlarını qoruya bilmək qabiliyyəti ilə Özünün əsl siyasi lider olduğunu isbatlayıb. Məhz Prezident İlham Əliyevin uğurla yürütdüyü siyasət nəticəsində çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Bunun üçün isə ilk növbədə ölkə iqtisadiyyatı özünün inkişaf tempini artıraraq dünyanın apırıcı reytinq cədvəllərində əks olundu, ordu quruculuğu ən müasir standartlara uyğunlaşdırıldı, sosial problemlərin həlli, həssas təbəqənin mənafeyinin təmini əsas prioritet kimi müəyyənləşdirildi. Azərbaycan Ordusu ilk dəfə dünyanın 50 ən güclü ordusu sırasında yer aldı. Müdafiə xarakterli məhsulların daxili istehsalı gücləndirildi. Ordu komplektləşdirildi. Beləliklə, Azərbaycan həm ərazi bütövlüyünün təmini, həm də tarixi ədaləti bərpa etmək kimi hədəflərinə cəmisi 44 gün ərzində çatdı.

**Sülh, əməkdaşlıq və etimad prinsipləri**

Azərbaycanın qələbəsi mütləq qələbədir - Prezident İlham Əliyevin bildirdiyi kimi, " Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq". Bu təqdimatın arxasında meqafəaliyyət mexanizmi, konsepsiyalılıq, praqmatiklik və siyasi iradə dayanır. Zəfəri təmin edən amillər göz önündədir - Azərbaycan ən qısa müddətdə, böyük sürətlə Cənubi Qafqazın siyasi-iqtisadi aktoruna çevrilib. Düzgün qurulmuş iqtisadi siyasət milli maraqlara söykənən xarici siyasət kursunun hədəflərini müəyyənləşdirir. Azərbaycan dünyanın beynəlxalq tribunalarının etibarlı simasına, böyük dövlətlərin və təşkilatların ən yaxın tərəfdaşına çevrilib. Ən əsası, XXI əsrin əsas inkişaf tezisləri - sülh, əməkdaşlıq və etimad prinsipləri Azərbaycanın əsas şüarıdır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan qarşıdurma, rəqabət məkanı deyil, tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Vətən müharibəsində əldə edilmiş qələbə bu inamı və etimadı daha da möhkəmləndirir. Təsadüfi deyil ki, müharibədən sonrakı dövrdə də Bakının regional sülhün inkişafına verdiyi töhfələr beynəlxalq aləm tərəfindən birmənalı şəkildə dəstəklənir.

***P.İSMAYILOV***

---



## Milli Məclisin iclasında...

# 11 qanun layihəsi müzakirə olunub

Aprelin 10-da Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 11 qanun layihəsinin müzakirəsi daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin martın 24-dən 26-dək Çin Xalq Respublikasına işgüzar səfəri barədə məlumat verib. Səfərdə məqsəd Asiya naminə Boao Forumunda iştirak etmək idi. Onun sözlərinə görə, Forum Asiya-Sakit Okean regionunun 26 ölkəsi tərəfindən 2001-ci ildə təsis edilib, sonradan daha 3 ölkə onlara qoşulub. Azərbaycan bu tədbirə xüsusi qonaq kimi dəvət olunub.

**Spiker: Çinə işgüzar səfər uğurlu oldu**

S.Qafarova Asiya naminə Boao Forumunun İllik Konfransında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının sədri Si Cinpinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan-Çin münasibətlərindən danışdığını söyləyib. Çıxışda Çin tərəfindən irəli sürülən və Azərbaycan tərəfindən dəstəklənən qlobal təşəbbüslərin əhəmiyyəti vurğulanıb, Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyi, "Bir Kəmər, Bir Yol" layihəsinin inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyi diqqətə çatdırılıb. Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir. "Azərbaycanla Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Orta Dəhlizin səmərəliliyini daha də artıracaq.Onu da deyim ki, 30 illik işğala son qoyan Azərbaycanın suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmama prinsiplərini daim dəstəklədiyini bildirdim. Azərbaycan dövlətinin irəli sürdüyü qlobal təşəbbüslər, Bakıda keçirilmiş və keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlər haqqında Forum iştirakçılarına məlumat verdim",-deyən spikerin fikrincə, Çin Xalq Respublikasına işgüzar səfər uğurlu olub.

**Azərbaycan və Belarus sürücülük vəsiqələrini qarşılıqlı tanıyacaq**

Daha sonra iclasın gündəliyindəki məsələlər müzakirə olunub. Əvvəlcə "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş" təsdiq edilib. Sazişin imzalanmasında əsas məqsəd hər iki dövlət arasında avtomobil daşımalarının təhlükəsizliyini artırmaq, yol hərəkətini yaxşılaşdırmaq, sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasını və dəyişdirilməsini təmin etməkdir.Sazişə əsasən tərəflər səlahiyyətli qurumları tərəfindən öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq verilmiş daimi və etibarlı sürücülük vəsiqələrini qarşılıqlı olaraq tanıyırlar.

Sonra Əmək Məcəlləsi və "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul olunub. Dəyişikliyə əsasən bir sıra təhsil müəssisələrində işləyən təhsilverənlərin nəzəri və praktiki biliklərinin xüsusi qaydalar üzrə sertifikasiya əsasında qiymətləndirilməsi aparılacaq.Bildirilib ki, qanun layihəsi Mədəniyyət Nazirliyinin sistemində daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin nəzəri və praktiki biliklərinin attestasiya yolu ilə deyil, xüsusi qaydalar üzrə sertifikasiya əsasında qiymətləndirilməsinin aparılması məqsədilə hazırlanıb.

Layihənin qəbul edilməsi nəticəsində təhsilverənlərin nəzəri biliklərinin, təcrübəsinin və peşə yararlılığının attestasiya keçirilməsi yolu ilə deyil, sertifikasiya imtahanına cəlb edilməsi yolu ilə xüsusi qaydalara uyğun olaraq qiymətləndirilməsi nəticəsində bu prosesin şəffaflığı, nəticələrin müqayisəliliyi və onların yüksək etibarlılığı təmin ediləcək, qeyd olunan təhsil müəssisələrinin şəbəkəsinin inkişafına və təhsilin keyfiyyət səviyyəsinin artırılmasına nail olunacaq.

**Süni intellektlə saxta görüntülər hazırlayanlar cəzalandırılacaq**

İclasda, həmçinin Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul olunub.Layihə süni intellekt texnologiyalarından istifadə edilməklə reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi daşıyır. Həmin halların qarşısının alınması məqsədilə qanunda müvafiq hüquqi məsuliyyət mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Qanun layihəsində Cinayət Məcəlləsinə yeni maddələrin əlavə edilməsi təklif olunur. Yeni maddələrə əsasən, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişiklik edilərək cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir.Eyni zamanda, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər və məhdudiyyətlər müəyyən olunur.

**Terrorçuluq fəaliyyəti ilə bağlı yeni cəzalar...**

Millət vəkilləri "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişikliyi birinci oxunuşda qəbul ediblər. Layihəyə əsasən, Cinayət Məcəlləsinə terror təşkilatı yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etməyə görə cinayət məsuliyyətini müəyyən edən 214-4-cü maddə əlavə olunur.Sənəd layihəsinə əsasən, bu Məcəllənin 102, 214, 214-1, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 280 və 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədilə terror təşkilatı yaratma, yaxud həmin təşkilata və ya onun struktur bölməsinə rəhbərlik etməyə görə on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırma təklif olunur. Terror təşkilatına üzv olma və ya onun fəaliyyətində iştirak etməyə görə isə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılma tətbiq ediləcək.

Bununla yanaşı, Cinayət Məcəlləsinin 282-ci maddəsi yeni redaksiyada verilir. Belə ki, 282.1-ci maddəyə elmi-texniki potensialı zəiflətmək məqsədi, habelə kritik informasiya infrastrukturu, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrinin normal fəaliyyətinin pozulması kimi yeni obyektlər əlavə edilir.Həmçinin, təxribatın törədilmə üsullarına əməli süni intellekt texnologiyalarından və xüsusi proqram təminatlarından istifadə halları da daxil edilir. 282.2-ci maddədə bir sıra yeni ağırlaşdırıcı hallar nəzərdə tutulur. Maddənin qeyd hissəsinə əsasən, təxribatın hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

**Minatəmizləmə zamanı həlak olanların övladlarının təhsil haqqını dövlət ödəyəcək**

İclasda Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda qəbul olunub. Bildirilib ki, bu qanun layihəsi minatəmizləmə fəaliyyəti həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və onlara dövlət qayğısının artırılması məqsədilə hazırlanıb.Layihədə Vergi Məcəlləsinə təklif edilən dəyişiklik minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin vergi tutulmalı olan aylıq gəlirinin 400 manat məbləğində azaldılmasını, "Təhsil haqqında" Qanuna təklif olunan dəyişiklik isə minatəmizləmə fəaliyyətini həyata keçirən zaman həlak olmuş minatəmizləyənlərin övladlarının mülkiyyət formasından asılı olmayaraq Azərbaycanın təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsini nəzərdə tutur.

Layihənin keçid müddəalarına əsasən, 2026-cı il sentyabrın 15-dən tətbiq edilməsi nəzərdə tutulan dəyişikliklər bu qanun qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladlarına da (ən çoxu 23 yaşına çatanadək) şamil olunur.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul edilib.

***Nardar BAYRAMLI***

# 3-cü iclas...

## Azərbaycan-Türkiyə-Şimali Kipr parlamentlərinin dostluq qrupları bir arada

Hazırda dünyada mürəkkəb qlobal proseslərin davam etməsi türk dünyasının birliyinin daha da güclənməsini zəruri edir. Əsrlər boyu dünya tarixində bəşəri dəyərləri ilə özünəməxsus yer tutmuş türk xalqları məhz bu gün mürəkkəb beynəlxalq münasibətlər və qloballaşma şəraitində öz mövcudluğunu qoruyub saxlamaqda, həmçinin bəşəriyyətin inkişafına, inteqrasiya və əməkdaşlığa xüsusi töhfələr verməkdədirlər. Tarixin bütün dövrlərində ən müxtəlif proseslər və hadisələrin əsas məkanı qismində çıxış edən Avrasiyada türk xalqları müsbət regional və beynəlxalq dəyişikliklərə səbəb olan proseslərin baş verməsində özünəməxsus rol oynayıblar.

### TDT cəmiyyətlərin inteqrasiyasında vacib rol oynayır

Dünyanın mövcud geosiyasi şərtləri fonunda türk dövlətləri arasında əməkdaşlıq münasibətləri bu gün daha vacib xarakter daşıyır. Xüsusilə, Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türk dövlətləri arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir. XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı (TDT) da öz gücünü artırmaqdadır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi məkandır. 2009-cu ildə Naxçıvanda təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu əməkdaşlığın daha da inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm platforma rolunu oynayır. 2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaradır.

Azərbaycan TDT-nin təsisçi üzvlərindən biri olaraq bu təşkilatın fəaliyyətində mühüm rol oynayır. Ölkəmiz təşkilat yaranan gündən ona xüsusi önəm verib və bu istiqaməti xarici siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Azərbaycan TDT-ni üzv və müşahidəçi dövlətlərlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün vacib platforma hesab edir. Azərbaycan dövləti TDT çərçivəsində qurumun nüfuzunu artırmaq və funksionallığını gücləndirmək üçün mütəmadi olaraq yeni təşəbbüslərlə çıxış edir. Bu baxımdan, türk dövlətlərinin müxtəlif strukturlarının təşkilatlanmış formatı əhəmiyyət kəsb edir. Eləcə də, türk dövlətlərinin müxtəlif platformalar çərçivəsində görüşləri ənənə halını alıb. Bu tipli platformalardan biri də üçtərəfli görüşlərdir.




### Ölkəmiz Türkiyə və ŞKTC ilə əməkdaşlığı gücləndirir

Üçtərəfli görüşlər parlament müstəvisində də reallaşdırılır. Aprelin 9-da Bakıda Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin 3-cü iclasının keçirilməsi də bunun göstəricisidir. Qeyd edək ki, Azərbaycanla Türkiyənin münasibətləri "Bir millət-iki dövlət" prinsipinə əsaslanır. Bakı ilə Ankaranın təşəbbüsləri bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqələrimiz ən yüksək zirvəyə qalxıb. Bütövlükdə, bölgədə qlobal əhəmiyyəti yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir.

Azərbaycanla Şimali Kipr (ŞKTC) arasında da müxtəlif sahələr üzrə əlaqələr mövcuddur. İqtisadi-ticarət, xüsusilə humanitar-mədəni əlaqələr inkişaf etməkdədir. 2022-ci ilin noyabrında TDT-nin Özbəkistanın Səmərqənd şəhərində keçirilən IX Zirvə Görüşündə Şimali Kipr Türk Cümhuriyyəti təşkilata müşahidəçi statusunda üzv qəbul edilib. Bununla da, türk dövlətləri eyni zamanda öz iradələrini bütün dünyaya nümayiş etdirdilər.

### Üçtərəfli görüşlər parlament müstəvisində...

Qeyd edək ki, üç ölkənin parlamentləri arasında da əlaqələr inkişaf edir. 3-cü iclasda Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov bildirib ki, ölkələrimiz arasında əlaqələr günbəgün genişlənir, inkişaf edir. O, bu əlaqələrin möhkəmlənməsində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu olduğunu vurğulayıb. Əhliman Əmiraslanov Şimali Kiprlə də əlaqələrimizin genişləndiyini bildirərək, Milli Məclisdə Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradıldığını diqqətə çatdırıb.

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri, Şimali Kipr-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər isə ŞKTC-nin Türk Dövlətləri Təşkilatında, habelə TÜRKPA-da təmsil olunmasının qurum ölkələri ilə daha səmərəli əlaqələrin qurulmasına imkan verəcəyini deyib. O, Şimali Kiprin Türkiyə və Azərbaycan parlamentləri ilə mövcud olan uğurlu əməkdaşlığının bütün türk dövlətləri parlamentləri ilə də inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Üçtərəfli iclasda çıxış edən Milli Məclisin Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev qrupun 2024-cü ildə yaradıldığını, ötən dövr ərzində parlamentlərimiz arasında sıx əlaqələrin olduğunu, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin baş tutduğunu bildirib.

Daha sonra tədbirdə TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycan və Türkiyə parlamentləri arasında səmərəli əməkdaşlığın həm regional, həm də Türk dünyasında strateji əhəmiyyət daşıdığını qeyd edib. O, Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır, başqa ailəmiz yoxdur" fikrinin önəmini vurğulayaraq, türk dünyası ölkələri arasında bütün sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində birgə səylərin vacibliyindən danışıb.

Qeyd edək ki, Milli Məclisin sədri Sahibə Qafarova iclas iştirakçıları ilə görüşüb. Görüşdə Sahibə Qafarova Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrini xatırladaraq deyib ki, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin daha da gücləndirilməsinə yönələn addımlar da dövlətimizin başçısının bu fikrini əks etdirir. Söhbət zamanı vurğulanıb ki, bu münasibətlər xalqlarımızın təmsilçiləri olaraq, parlamentlər səviyyəsində də uğurla davam etdirilir və qanunvericilik orqanlarımız həm ikitərəfli əsasda, həm də üçtərəfli formatda əməkdaşlıq edir. Bu mənada Azərbaycan-Türkiyə-Şimali Kipr parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının üçtərəfli formatının əhəmiyyəti vurğulanaraq, bu əməkdaşlıq formatı çərçivəsində keçirilən mütəmadi görüşlərin parlamentlərarası əməkdaşlığın inkişafına, ortaq maraqların müdafiəsinə və həmrəyliyin gücləndirilməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

*Nardar BAYRAMLI*

# "İkipilləli Buraxılış Sistemi"

## Gömrük əməliyyatları sadələşdiriləcək

Azərbaycanda gömrük əməliyyatlarının asanlaşdırılması və sürətləndirilməsi, rəqəmsallaşmanın genişləndirilməsi, əlçatanlığın və şəffaflığın artırılması məqsədilə"İkipilləli Buraxılış Sistemi" layihəsinin tətbiqi nəzərdə tutulur. Yeni sistem gömrük keçid məntəqələrində saxlama məsrəflərinin minimuma endirilməsi və məhsulların istehlakçılara daha operativ şəkildə çatdırılmasını təmin etmək məqsədi daşıyır. Bu layihə xarici ticarət iştirakçılarına malların saxlanılması xərclərinin azaldılması, malların buraxılışının və istehlakçıya ünvanlanmasının sürətləndirilməsi, daha əlverişli biznes şəraitinin yaradılması kimi üstünlüklər təqdim edəcək. İlin sonuna kimi tətbiqi nəzərdə tutulan sistem xarici ticarət iştirakçılarına idxal əməliyyatları zamanı gömrük ödənişlərini malların buraxılışından etibarən 30 gün ərzində ödəmək imkanı yaradacaq.




Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov bildirib ki, gömrük-biznes münasibətlərinin tərəfdaşlıq prinsipləri əsasında qurulması, biznes subyektlərinin məmnunluğunun təmin edilməsi gömrük xidmətinin əsas strateji hədəflərindən biridir. Gömrük orqanları müxtəlif platformalarda sahibkarlarla səmərəli, işgüzar dialoqun qurulmasına, gömrük sistemində tətbiq ediləcək yeniliklərin, layihələrin biznes nümayəndələri ilə birlikdə müzakirə edilərək onların təklif və rəylərinin öyrənilməsinə xüsusi önəm verir. Gömrük sahəsində əməliyyatların asanlaşdırılması və ticari prosedurların sadələşdirilməsi ilə bağlı davam etdirilən islahatlar da məhz biznesin təklif və rəylərinə əsaslanır.

**Sərhəd məntəqələrində maneəsiz keçid**

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməklə, beynəlxalq nəqliyyat dəhlizlərində sürətli və maneəsiz keçidlərin təmin edilməsində də fəal rol oynayır, bu məqsədlə müasir infrastrukturlar qurur, Orta Dəhlizin daşınma qabiliyyətinin gücləndirilməsi üçün tərəfdaşları ilə birgə hüquqi-institisional mexanizmlər hazırlayır. Bunun nəticəsidir ki, ölkəmizin ərazisindən keçən daşınmaların həcmi durmadan artır. Məsələn, 2025-ci ildə Orta Dəhliz vasitəsilə yükdaşımalar 11 faiz, Şimal-Cənub dəhlizi üzrə isə 12 faiz artıb. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi nəticəsində illik ötürücülük qabiliyyəti 5 milyon tona çatdırılıb, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü daha da artırılıb və 2025-ci ildə Bakı Limanında konteyner aşırılması əvvəlki illə müqayisədə 40 faiz yüksələrək 107 mini keçib. Hazırda Limanın yükötürmə gücünün 25 milyon tona çatdırılması istiqamətində işlər davam etdirilir.

Zəngəzur Dəhlizinin istifadəyə verilməsi isə Avropa ilə Mərkəzi Asiya arasında etibarlı quru əlaqəsi yaratmaqla yanaşı, Azərbaycandan keçən yüklərin həcmini qat-qat artıracaq.

Eləcə də, Şimal-Cənub və digər dəhlizlərdə nəqliyyat və logistika imkanlarını artıran Azərbaycan dövləti beynəlxalq daşınmaların daha asan və sürətli keçidlərini təmin etmək üçün sərhəd-keçid məntəqələrində gömrük rejimini daha da sadələşdirməyi hədəfləyir.

**10 ölkə ilə ticarət sazişi imzalanıb**

Gömrük xidmətində davamlı çevik alətlərin tətbiqinin genişləndirilməsi, gömrük inzibatçılığının səmərəliliyinin artırılması üzrə həyata keçirilən fəaliyyətin mərkəzində məhz rəqabət mühitinin möhkəmlənməsi, xidmət keyfiyyətinin daha da yüksəldilməsi dayanır. Rəqəmsal tranzit sisteminə əsasən, ticarət prosedurlarının optimallaşdırılması və sərhəd-keçid sisteminin modernləşdirilməsi də nəzərdə tutulur. Bu sistemin əsas məqsədi Azərbaycanın xarici ticarət əlaqələrinin genişləndirilməsini təmin etməkdir. Hazırda Azərbaycan 10 ölkə ilə ticarət sazişi imzalayıb. Həmin sazişlər beynəlxalq ticarətin daha da genişlənməsinə imkan verir. Rəqəmsal həllərin tətbiqi isə ölkəmizin qlobal ticarət zəncirinə daha çevik inteqrasiyasını təmin edəcək. Eyni zamanda, qeyri-qanuni dövriyyə ilə mübarizə, subyektivlik risklərinin azaldılması və biznes mühitində bərabər rəqabət şəraitinin təmin olunması prioritetlər sırasındadır. İnsan kapitalının inkişafı, data əsaslı qərar qəbul etmə, "yaşıl gömrük" təşəbbüsləri və rəqəmsal transformasiya müasir idarəetmənin əsas elementləri olaraq qalacaq.

**Avtoburaxılış sisteminə keçid**

Azərbaycan gömrüyü avtoburaxılış sisteminə keçməyi əsas hədəflərdən biri hesab edir. Sahibkarlıq subyektlərinin bəyannamələrinə müəyyən limit çərçivəsi qoyulmaqla avtoburaxılış sisteminə keçməyi nəzərdə tutulur. Yeni rəqəmsal alətlər gələcəkdə artıq etibarlı tərəfdaş olan sahibkarlıq subyektlərinin bəyannamələrini müəyyən limit çərçivəsi qoymaqla avtoburaxılış sisteminə keçirməyə imkan verəcək. Eyni zamanda, gömrük orqanları Avtomatlaşdırılmış Risk Analizi Sisteminin (ARAS) yeni versiyasının tətbiqinə başlayıb. Gömrük orqanları qabaqcıl texniki nəzarət vasitələrinin tətbiqini də genişləndirir ki, bu da tranzitin həcminə təsir edir.

**Orta Dəhlizdə ticarət prosedurlarının asanlaşdırılması**



Yeri gəlmişkən, sadələşdirilmiş gömrük keçidlərinin yaradılması Türk Dövlətləri Təşkilatının (TDT) üzv ölkələr arasında da başlıca məqsədlərdən biri kimi müəyyən edilib. Bir neçə gün əvvəl Bakıda keçirilən TDT-nin Hökumət Başçılarının/Vitse-prezidentinin İkinci Görüşündə bu məsələyə toxunulub. Bildirilib ki, nəqliyyat və logistika xərcləri, uzun məsafələr, sənədlərin yoxlama müddətləri, gömrük və tranzit prosedurları son nəticədə tranzit daşınmalarındakı intensivliyə təsir göstərir. Ona görə də, türk dövlətləri müəyyən etdikləri "Türk Dünyasına Baxış 2040" strateji sənədinə uyğun olaraq, Orta Dəhliz boyunca gömrük və ticarət proseslərini asanlaşdırmağı hədəfləyib. Həmin hədəflər çərçivəsində Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması və "Bir pəncərə" prinsipinin tətbiqi başlıca yer tutur. Həmçinin, vahid gömrük informasiya sisteminin yaradılması, ortaq risklərin idarə edilməsi mexanizmlərinin formalaşdırılması, elektron ticarət sahəsində innovativ texnologiyaların və vahid bəyannamə sisteminin tətbiqi əsas prioritetlərdəndir.

**Asan gömrük dəhlizinin yaradılması**

TDT-nin yeni iqtisadi baxış siyasətinə əsasən, ölkələr arasında rəqəmsal azad ticarət rejiminin təmin olunması da əsas prinsiplərdən biridir. Tərəflər arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılmasına dair imzalanmış Sazişə əsasən, türk dövlətlərinin apardığı ticarət əməliyyatları zamanı gömrük prosedurlarının asanlaşdırılması, qarşılıqlı ticarətin elektronlaşdırılması üzrə rəqəmsal məlumat mübadiləsinin həyata keçirilməsi də nəzərdə tutulur. Eləcə də, Preferensial (qarşılıqlı güzəşt) qaydalar əsasında məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılması da əsas məqsədlərdən biridir. Bu, üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması deməkdir. Nəticədə, yeni gömrük qaydaları sərhədkeçmə prosedurlarını asanlaşdıracaq, vaxt və müddətləri qısaldacaq, türk dünyası arasında ticarətin optimallaşması baş verəcək. Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması TDT-nin ən mühüm hədəflərindən biri olan ticarət dövriyyələrinin həcmlərinin artırılmasına imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Qala divarının qorunmasına həssas yanaşma

Tariximizin yaddaşı olan İçərişəhər ərazisində Qala divarının bir hissəsində baş vermiş qismən dağılma ilə bağlı dərhal operativ tədbirlər görülməsinə başlanıb. Bu barədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi məlumat yayıb.

Bildirilib ki, hazırda əraziyə yüksək ixtisaslı mütəxəssislər cəlb olunub. Mütəxəssislər qrupu uzun illər beynəlxalq təcrübəyə malik olmaqla yanaşı, Azərbaycanda da bir sıra mühüm tarixi abidələrin bərpasında iştirak ediblər. Onların müxtəlif vaxtlarda həyata keçirdikləri bərpa layihələri sırasında Qız qalası, Qoşa Qala qapısı, Şirvanşahlar Sarayı Kompleksi və digər mühüm abidələr yer alır.

## Dünya abidələrinin oxşar taleləri

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu bütün abidələri, o cümlədən də qala divarı ilə birlikdə ölkəmizin ən mühüm tarixi-mədəni irs nümunələri sırasına daxildir. İçərişəhər çoxəsrlik mədəniyyətimizin rəmzlərindəndir. Ölkəmizin orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarı olan bu unikal məkandakı Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, məscidlər, karvansaralar, qala divarı və digər tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir.

İçərişəhər ümummilli lider Heydər Əliyevin diqqəti və qayğısı nəticəsində 1977-ci ildə tarix-memarlıq qoruğu statusu alıb, 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib.

Hər bir azərbaycanlının qəlbində qürur hissi doğuran bu "muzey-şəhər" ölkəmizin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk tarixi abidəsidir. İçərişəhərin Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi ilə birgə UNESCO-nun 2000-ci ildə keçirilmiş Ümumdünya Mədəni İrs Komitəsinin 24-cü sessiyasında Ümumdünya İrs Siyahısına salınması onun ümumbəşəri dəyər kimi qəbul edilməsinin və layiqincə qiymətləndirilməsinin göstəricisidir.



İçərişəhərdəki bütün abidələrin, o cümlədən də Qala divarının qorunması daim diqqət mərkəzində saxlanılır. Qala divarında son illər ərzində hissəvi bərpa və konservasiya tədbirləri sistemli şəkildə həyata keçirilib. Hazırda bu tədbirlər mərhələli plan çərçivəsində davam etdirilir və İsmailiyyə Sarayına bitişik hissəni əhatə edir.

Haqqında bəhs olunan aşınma hadisəsi Qala divarının 13 və 14 saylı bürclərinin kəsişmə hissəsində baş verib. İndiyədək bu hissəyə hər hansı bərpa və ya restavrasiya müdaxiləsi həyata keçirilməyib. Aşınmaya əsas səbəb son günlər müşahidə olunan aramsız atmosfer yağıntıları nəticəsində yaranan rütubət və təbii eroziya prosesləridir.

Qeyd edək ki, dünya təcrübəsində tarixi qala divarlarının və antik konstruksiyaların bu cür qəfil deformasiyası hallarına tez-tez rast gəlinir. Necə deyərlər, dünya abidələri oxşar talelər yaşayırlar. Xüsusilə iqlim dəyişikliyi, qrunt sularının hərəkəti və ya seysmik aktivlik səbəbindən Avropanın və Asiyanın qədim şəhərlərində bənzər vəziyyətlər müşahidə olunub. Bu, xüsusilə açıq hava şəraitində olan müdafiə tikilləri üçün xarakterikdir. Zaman-zaman Roma qala divarları (Muro Torto, İtaliya), Çin Səddi, Avropadakı qalalar (Krakov və ya Aviny) müxtəlif səviyyəli aşınmalara məruz qalıblar.

## Təcili konservasiya və sabitləşdirmə tədbirləri həyata keçiriləcək

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaydığı məlumatda bildirilir ki, mövcud fəaliyyət planına uyğun olaraq, ilkin mərhələdə təcili konservasiya və sabitləşdirmə tədbirləri həyata keçiriləcək. Bu tədbirlər zədələnmiş sahənin daha da deformasiyaya uğramasının qarşısını almağa və konstruksiyanın dayanıqlığını təmin etməyə yönəlib.

Növbəti mərhələdə ərazidə ətraflı texniki və mühəndis-ekspertiza qiymətləndirilməsi aparılacaq. Qiymətləndirmənin nəticələrinə əsasən, Qala divarının zədələnmiş hissəsinin elmi əsaslandırılmış bərpası həyata keçiriləcək.

Qeyd edilib ki, bu yanaşma daha əvvəl İçərişəhər ərazisində həyata keçirilmiş digər bərpa layihələrində uğurla tətbiq olunub. Aparılacaq bütün bərpa işləri yüksək dəqiqlik, xüsusi həssaslıq və beynəlxalq standartlara uyğun şəkildə həyata keçiriləcək. "Məqsədi abidənin tarixi autentikliyini qorumaqla onun uzunmüddətli dayanıqlığını təmin etməkdir", - deyə yayılan məlumatda vurğulanır.

*MÜBARİZ*

# Dünya Bankından yeni hesabat

## Bank Azərbaycanın iqtisadi artım proqnozunu yüksəldib

Dünya Bankı (DB) Avropa və Mərkəzi Asiya regionunun iqtisadi perspektivlərinə dair aprel hesabatını açıqlayıb. Qiymətləndirmələrə əsasən, cari ilin ötən 3 ayı ərzində Avropa və Mərkəzi Asiya, Cənubi Qafqaz bölgələrində ÜDM-in ümumi artımı orta tempə uyğun olub. Region ölkələrinin yürütdüyü fiskal siyasətin sərtləşdirilməsi nəticəsində investisiya xərclərinin artımı baş verməyib. Real kreditləşmənin artımı Mərkəzi Asiya və Cənubi Qafqazda sürətli genişlənmə templərinin zəifləməsi fonunda bir qədər yavaşlayıb. Bir sıra ölkələrdə makroprudensial tədbirlərin sərtləşdirilməsi daha sərt pul-kredit siyasəti ilə yanaşı, istehlak kreditləşməsini də məhdudlaşdırıb.




Bankın şərhinə əsasən, 2026-cı ilin ilk rübündə qlobal geosiyasi proseslərin, Rusiya-Ukrayna müharibəsinin, eləcə də Yaxın Şərqdə davam edən gərginliyin fonunda beynəlxalq enerji bazarlarında enerji daşıyıcılarının qiymət sabitliyinin pozulması neftin qiymətində kəskin yüksəlmələrin baş verməsinə səbəb olsa da, növbəti aylarda sıçrayışlı bazar indeksləri gözlənilmir, orta bazar qiymətinin 80-90 dollar olacağı ehtimal olunur. Bu, neft ixrac edən ölkələrin iqtisadiyyatındakı maliyyə gəlirlərini və fiskal sabitliyi dayanıqlı şəkildə saxlamaq üçün əlverişli çərçivədir.

**2026-cı ildə 2, 2027-ci ildə 1,8 faiz...**

DB 2026-cı ildə Azərbaycanda ÜDM-in artımını 2 faiz, 2027-ci ildə isə 1,8 faiz səviyyəsində proqnozlaşdırır. Belə ki, bankın yanvar qiymətləndirmələri ilə müqayisədə proqnoz göstəriciləri müvafiq olaraq 0,2 və 0,1 faiz bəndi artırılıb. Hesabatda vurğulanır ki, Azərbaycanda fiskal siyasətin sərtləşdirilməsi nəticəsində investisiya xərclərinin normallaşması, eləcə də neft hasilatı həcmlərinin əhəmiyyətli dərəcədə azalması 2025-ci ildə iqtisadi artım tempinin 1,4 faizə enməsinə səbəb olub, bu isə 2024-cü ilin göstəricisindən təxminən üç dəfə azdır. Büdcə profisiti də karbohidrogen sektorundan daxilolmaların azalması nəticəsində nəzərəçarpacaq dərəcədə aşağı düşüb.

Dünya Bankı Azərbaycanla qeyri-neft sektorunun inkişafının yaxın dövrdə mədən sənayesinin yaratdığı əlavə dəyəri əhəmiyyətli dərəcədə üstələyəcəyini və inkişafın əsas drayveri kimi qeyri-neftqaz yığım mənbələrinin olacağını ehtimal edir. Yeri gəlmişkən, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında əməkdaşlığın yeni modeli olan Ölkə Tərəfdaşlıq Çərçivəsinə əsasən, neft və qaz gəlirlərindən asılılığın azaldılması və qeyri-neft mənbələrinin sütunları üzrəində dayanıqlı iqtisadi artımların təmin edilməsi, şaxələndirilmiş gəlirlərin insan kapitalına yönəldilməsi və sosial rifahın yaxşılaşdırılması, fiziki infrastruktura və daha güclü institutlara investisiya yatırımlarının artımı yolu ilə ölkənin xarici şoklara dayanıqlığının gücləndirilməsi nəzərdə tutulur.

**Beynəlxalq agentliklərin proqnozları qənaətbəxşdir**

Qeyd edək ki, beynəlxalq agentliklərin və iqtisadi institutların da ölkəmizlə bağlı proqnozları da ümidvericidir. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına görə, Azərbaycanda iqtisadi artım 2026-ci il üzrə 2,5 faiz, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək. Artımın əsas mənbəyi kimi qeyri-neft sahələrindən əldə edilən əlavə dəyərlər əsas hesab olunur. Hazırda qeyri-neft sektorundakı artımın 6-7 faiz təşkil etməsi iqtisadi inkişafın hərəkətverici drayverlərinin artıq daha işlək olmasından xəbər verir. BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq.

Asiya İnkişaf Bankı 2026-cı ildə Azərbaycan iqtisadiyyatının 2 faiz, Avropa Yenidənqurma və İnkişaf Bankı 2,5 faiz, "ING Group" isə 2026-cı ildə 2,8 faiz, 2027-ci ildə isə 2 faiz artım olacağını fərz edir. BMT-nin qiymətləndirmələrinə görə, Azərbaycanın iqtisadi artımı 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək. Beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələri də deməli olar ki, oxşardır. "S&P Global" agentliyi ölkəmizdə artımın 2026-cı ildə 2 faiz, "Fitch Ratings" 2,5 faiz, "Moody's" isə 2,5 faiz olacağını gözləyir.

**Hökumətin gözləntiləri də müsbətdir**

Qeyd edək ki, Azərbaycan hökumətinin 2026-cı ilə və 2027-ci ilə dair iqtisadi artım proqnozları da DB və digər beynəlxalq institutların ehtimallarına uyğundur.

Mərkəzi Bankın yenilənmiş proqnozlarına əsasən, ÜDM 2026-cı ildə 2,4 faiz, qeyri-neft-qaz sektoru üzrə ÜDM isə 4 faiz artacaq. 2027-ci ildə isə ölkədə iqtisadi artımın 2,9 faiz, qeyri-neft-qaz sektoru üzrə isə 4,3 faiz təşkil edəcəyi gözlənilir.

İqtisadiyyat Nazirliyinin iqtisadi artımla bağlı cari və ortamüddətli dövr üzrə proqnozları da Mərkəzi Bankın ehtimallarına uyğundur. Nazirlik ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,9 faiz olacağını proqnozlaşdırır. Belə ki, 2026-cı ildə əlavə dəyərin real artımının 2,9 faiz, 2027-ci ildə 3,3 faiz, 2028-ci ildə isə 3,1 faiz olacağı fərz edilir. Qeyri-neft ÜDM-nin isə cari ildə 5 faiz, gələn il 4,8 faiz, 2028-ci ildə isə 5 faiz artacağı gözlənilir. Ortamüddətli Xərclər Çərçivəsi sənədində 2026-cı ilin sonuna ÜDM-in həcminin 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata , o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir.

**Azad ərazilər yeni gəlir mənbələrinə çevrilir**

Ortamüddətli proqnozlarında Azərbaycanın qeyri-neft gəlirlərinin yeni bir mənbəyi olan azad edilmiş ərazilərdəki iqtisadi potensial nəzərə alınmadığından ÜDM-in artımında həmin resursların payı da öz əksini tapmır. Ancaq halbuki həmin mənbələrin də əlavə dəyərdəki payını nəzərə alsaq, yaxın 4-5 ildə Azərbaycanın ümumilikdə artım proqnozu 5 faizi ötmüş olacaq. Belə ki, hazırda işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində icra olunan layihələrin bir müddət sonra yeni əlavə dəyər yaradacağı istisna deyil. Belə ki, bu bölgədə əsası qoyulmuş və fəaliyyətə başlamış aqroparklar və sənaye texnoparkları, eləcə də zəngin iqtisadi potensialı olan Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər, və Füzuli rayonlarındakı aqrar və turizm müəssisələrinin iqtisadi gəlirliliyi tez bir zamanda özünü göstərəcək. Yaxın perspektivdə bu bölgədə ən azı 232 min hektar sahədə əkinlərin olacağı proqnozlaşdırılır ki, bu da ölkə üzrə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının təxminən 12-15 faiz artımına səbəb olacaqdır. Bu isə iqtisadiyyata reinteqrasiyanın təmin edilməsi fonunda ÜDM-in nominal dəyərini də artıracaq.

*E.CƏFƏRLİ*

# Asiya İnkişaf Bankının yeni ssenariləri

## Neft qiymətləri 2026-cı ildə dünya iqtisadiyyatı üçün əsas təsiredici amil olacaq

Asiya İnkişaf Bankı (AİB) "Asiyanın İnkişaf Perspektivləri" adlı aprel icmalında qlobal iqtisadiyyatın vəziyyətinə dair açıqladığı yeni hesabatında enerji amilinin region ölkələri üçün təsiredici ehtimallarının təqdim edib. Bank Yaxın Şərqdəki münaqişə və onun dünyada neftin qiymətlərinə mümkün təsiri fonunda vəziyyətin necə inkişaf edə biləcəyi ilə bağlı üç ssenari gözləyir.

Birinci ssenaridə, qısamüddətli təchizat fasilələri bir rüb davam etsə, "Brent" markalı neftin qiyməti 2026-cı ilin ikinci rübündə təxminən 105 dollara çata bilər. İkinci ssenariyə əsasən, fasilələrin qarşıdakı ikinci və üçüncü rübdə davam edəcəyi təqdirdə, neftin qiyməti 130 dollara qədər yüksələ bilər və nəticədə qlobal artım daha da azala bilər. Üçüncü, ən mənfi ssenari isə il ərzində ciddi fasilələrin olacağı ehtimalıdır ki, bu halda, qiymətlər 2026-cı ilin ikinci yarısında 155 dollara çata və 2027-ci ilə qədər yüksək səviyyədə qala bilər. Bütün bu ssenarilər qlobal iqtisadiyyatın vəziyyətini ciddi şəkildə müəyyənləşdirəcək.

**Yaxın Şərqdəki münaqişə qeyri-müəyyənlik riskləri yaradır**

AİB-nin baş iqtisadçısı Albert Park vurğulayıb ki, Yaxın Şərqdə uzanan münaqişə region üçün əsas risk olaraq qalır, çünki bu, enerji və ərzaq qiymətlərinin artmasına və maliyyə şəraitinin daha da sərtləşməsinə səbəb ola bilər. Qeyd olunur ki, region mövcud çətin qlobal dövrə nisbətən davamlı daxili amillər - güclü daxili tələbat, sabit əmək bazarları və infrastruktura artan dövlət investisiyaları ilə daxil olur, xarici maliyyə aktivləri isə azalır. Çində iqtisadi artımın zəifləməsi daşınmaz əmlak bazarı və ixrac fəaliyyətinin azalması fonunda 2026-cı ildə 4,6 faizə, 2027-ci ildə isə 4,5 faizə qədər enəcək. Hindistanda isə güclü daxili tələbat səbəbindən artımın 2027-ci ildə 7,3 faizə qədər sürətlənməsindən əvvəl 6,9 faizə qədər azalacağı fərz edilir. Sakit okean regionu ölkələrində də zəif inkişaf indikatorları gözlənilir.

AİB qeyd edir ki, Yaxın Şərqdəki münaqişə və qlobal ticarətdə davam edən qeyri-müəyyənlik əsas təzyiq amilləridir və enerji daşıyıcılarının qiymətlərinin artması və gübrə bazarlarında potensial fasilələr qlobal ərzaq qiymətlərinə inflyasiya təzyiqini artıracaq. Energetika resurslarının təchizatında daha uzun müddətli fasilələr və logistika nasazlıqları qlobal maliyyə vəziyyətinin daha da sərtləşməsinə səbəb olur. Bu səbəbdən regionda inflyasiyanın 2026-cı ildə 3,6 faizə, 2027-ci ildə isə əvvəlki gözləntilərə nisbətən bir qədər artaraq 3,4 faizə yüksələcəyi gözlənilir.

**Azərbaycan iqtisadiyyatı mülayim artım templəri nümayiş etdirir**

Asiya Bankının Azərbaycanla bağlı proqnozlarına əsasən, ölkəmizdə iqtisadi artım 2026-cı il üzrə 2 faiz, 2027-ci ildə isə 1,8 faiz səviyyəsində gözlənilir. Bu, AİB-in əvvəlki hesabatındakı eyni göstəricilərə uyğundur. Bank iqtisadiyyatın dəyər yaradan əsas sahələrindən biri olan sənaye sektorunda istehsalın cari ildə 0,2 faiz, gələn il isə 0,1 faiz artacağını fərz edir. Aqrar sektorun inkişaf gözləntiləri isə 2026-cı ildə 1,4 faiz, 2027-ci ildə isə 1 faiz təxmin olunur.

Azərbaycanın maliyyə sektorunda vəziyyətə gəlincə, AİB hesab edir ki, Azərbaycan iqtisadiyyatı mülayim artım templəri nümayiş etdirir və fiskal dayanıqlılıq saxlanılmaqdadır. Əsas dəyər yaradan sahə - qeyri-neft mənbələrinin üzərində inkişaf templəri ümumi iqtisadi artımı təmin edir. Hökumətin stimullaşdırıcı büdcə və kredit siyasətləri çərçivəsində qeyri-neft dinamikası əlavə dəyərin formalaşmasında üstünlük təşkil etməkdədir. Xarici ticarət və tədiyyə balansında müsbət saldonun qeydə alınması makrosabitliyin möhkəm sütunlarda dayandığını göstərir. Büdcə ÜDM-in 2,6 faiz səviyyəsində qeydə alınan profisiti maliyyə-fiskal yığımların əvvəlki fiskal hərarətinin davam etməsini təsdiqləyir. Dövlət büdcəsinin kəsirinin 2026-cı ildə ÜDM-in 2,2 faiz, 2027-ci ildə isə 2,1 faiz təşkil edəcəyini gözləyir. Vurğulanır ki, 2026-cı ildə Azərbaycan Dövlət Neft Fondundan (ARDNF) transfertlər ÜDM-in 9,3 faizini təşkil edəcək. Dövlət büdcəsinin xərcləri isə ÜDM-in 30,3 faizinə bərabər olacaq ki, xərc portfelinin 10,2 faizi dövlət əsaslı vəsait qoyuluşlarının payına düşəcək.




Azərbaycanda monetar amil də ümidvericidir, yürüdülən uçot siyasəti faiz dərəcələrinin yumşalmasından xəbər verir. Belə ki, Mərkəzi Bank uçot dərəcəsini 7 faizə endirib, sentyabrda da eyni dərəcədə saxlaması sərt pul siyasətindən daha konservativ olduğunu şərtləndirmklə bank sektoru üçün əlverişli faiz tətbiq etməsinə imkan yaradır. Bu tendensiya ölkənin maliyyə dayanıqlığına da işarə edir, Azərbaycan manatının sabitliyinin bir göstəricisi olaraq çıxış edir. Manat ABŞ dollarına nisbətdə 1,7 səviyyəsində sabit olaraq qalır və bu sabitliyin 2026-2027-ci illərdə qüvvədə qalacağı gözlənilir.

**İnflyasiya gözləntiləri sabitdir**

Asiya Bankının qiymətləndirmələrinə görə, Azərbaycanda orta illik inflyasiyanın həcmi 2026-cı ildə 5,7 faiz, 2027-ci ildə isə 4,9 faiz təşkil edəcək. Bank ötən ilin sentyabr ayındakı proqnozuna nisbətən istehlak qiymətləri indeksi cari il üzrə 2,2 faiz-bənd artırıb. Bunun əsas səbəbi kimi qlobal karbohidrogen qiymətlərinin yüksək qalması səbəbindən idxal xərclərinin artması fonunda inflyasiyanın yüksəlmək ehtimalıdır. 2027-ci ildə isə yenidən idxal riskləri aşağı düşəcək ki, bu da gələn il üzrə təqdim edilən proqnozun azalmasına səbəb olacaq.

Yeri gəlmişkən, dünyanın digər nüfuzlu institutlarının da aprel hesabatlarında Azərbaycanla bağlı inflyasiya ehtimal AİB-in göstəricilərinə yaxındır. Beynəlxalq Valyuta Fondunun (BVF) qlobal iqtisadiyyata dair proqnoz baxışlarına əsasən, Azərbaycan üzrə inflyasiya 4,8 faiz nisbətində müşayiət olunacaq. Fondun qlobal əmtəə bazarlarına dair son hesabatına əsasən, 2026-cı ilin birinci yarısı ərzində enerji məhsullarının bahalaşması qiymət indeksini artıra bilər. Niderlandın ən böyük bank qrupu olan "ING Group" Azərbaycanda orta illik inflyasiyanı 2026-cı ildə 5,3 faiz, 2027-ci ildə isə 5,8, faiz səviyyəsində proqnozlaşdırır. Dünya Bankının yenilənmiş nəşrində isə ölkəmizdə istehlak qiyməti inkdeksi üzrə proqnoz 2026-cı və 2027-ci illərdə 5-6 faiz səviyyəsində proqnozlaşdırılır.

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanda cari ildə orta illik inflyasiyanın 4,5 faiz, "Fitch Ratings" 4,6 faiz, "Fitch Solutions" 5,5 faiz səviyyəsində olacağını gözləyir.

**Ölkə Tərəfdaşlıq Strategiyası üzrə AİB-in maliyyə baxışı**

AİB Azərbaycanda əlverişli investisiya mühitinin təmin edildiyinə diqqət çəkərək təsdiq olunmuş yeni Ölkə Tərəfdaşlıq Strategiyası (ÖTS) sənədinə əsasən, ölkəmizdə dayanıqlı iqtisadiyyatın təmin olunması, özəl sektorun təşviqi, maliyyə sektorunun gücləndirilməsinə dəstək verəcəyini bəyan edir. Azərbaycanda yeni investisiyayönümlü sahə kimi ön plana keçən texnologiyalar, rəqəmsal və "yaşıl iqtisadiyyat"a yönələn sərmayələrin axını bu istiqamətdə növbəti illərdə iqtisadi stimul yaradacaq. Bank özü də bu sahədə maliyyələşmədə maraqlı donor kimi Azərbaycanın etibarlı maliyyə təchicatçısı olmaq niyyətindədir.

Qeyd edək ki, Asiya Bankı 27 ilə yaxındır ki, ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən yaxın tətəfdaş kimi təmsil olunmaqdadır. Bank Azərbaycan hökumətinin prioritetləri əsasında ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirak edib. İndiyə qədər Asiya İnkişaf Bankı ilə Azərbaycan Respublikası arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində 4,5 milyard dollara yaxın maliyyələşdirmə proqramları həyata keçirilib.

*E.CƏFƏRLİ*



# Diqqət İslamabada!

## Pakistan prosesi: gözləntilər, proqnozlar, iddialar...

### ABŞ ilə İran arasında danışıqlar nələr vəd edir?

Fevralın son günündən başlayan və 38 gün davam edən Yaxın Şərq münaqişəsi "final"a yaxınlaşır. İslamabadda keçirilməsi nəzərdə tutulan görüş XXI əsrin siyasi axarına mütləq təsir edəcək bir görüş ola bilər. Qeyd edək ki, Ağ Ev vitse-prezident C.D. Vensin rəhbərlik etdiyi İran danışıqlar qrupunun Pakistana göndərildiyini yayıb. Ağ Evin mətbuat katibi Kerolin Livitt bildirib ki, danışıqların birinci mərhələsi aprelin 11-də şənbə günü keçiriləcək. İran nümayəndə heyətinə parlamentin sədri və İslam İnqilabı Keşikçiləri Korpusunun keçmiş komandanı Məhəmməd Baqir Qalibaf rəhbərlik edəcək - eləcə də xarici işlər naziri Abbas Əraqçi da heyətdə təmsil olunacaq. "Mən elan edə bilərəm ki, Prezident Tramp vitse-prezident C.D. Vensin, xüsusi elçi Vitkoffun və cənab Kuşnerin təmsil olunduğu danışıqlar qrupunu bu həftə sonu danışıqlar üçün İslamabada göndərir. Bu danışıqların birinci mərhələsi yerli vaxtla şənbə günü səhər keçiriləcək və biz bu üzbəüz görüşləri səbirsizliklə gözləyirik", - Livitt deyib.

O, əlavə edib ki, ABŞ Prezidenti Donald Tramp İranla "yalnız Hörmüz boğazından sərbəst keçid şərti ilə" danışıqlar aparacaq. Ağ Ev sözçüsünün sözlərinə görə, Hörmüz boğazından keçən nəqliyyat axını xeyli artıb.

### Təhlükəsizlik tədbirləri gücləndirilib

Qeyd edək ki, məlumatlı mənbələr görüşün qapalı keçiriləcəyini bildiriblər. Danışıqların keçirilməsi üçün ən çox ehtimal olunan yer Serena Otelidir. Məsləhətləşmələrdən sonra mətbuat konfransının keçirilməsi planlaşdırılır. Lakin ABŞ və İranın Pakistandakı səfirlikləri İslamabadda keçiriləcək qarşıdan gələn görüşün təfərrüatları ilə bağlı həlelik rəsmi açıqlamalar verməyiblər. Qarşıdan gələn danışıqlarla əlaqədar şəhərdə təhlükəsizlik tədbirləri gücləndirilib. Rəsmilər bu addımların xarici nümayəndə heyətlərinin təhlükəsizliyini təmin etmək üçün atıldığını bildirirlər. Hökumət binalarının yerləşdiyi "qırmızı zona"nın xüsusi nəqliyyat vasitələri istisna olmaqla, bütün nəqliyyat vasitələri üçün tamamilə bağlandığı bildirilir. Qeyd etmək lazımdır ki, neytral ərazidə bu cür diplomatik əlaqələr ənənəvi olaraq ən aktual ikitərəfli və regional məsələləri müzakirə etmək üçün istifadə olunur. Pakistan dəfələrlə birbaşa diplomatik münasibətləri olmayan ölkələr arasında dialoqu asanlaşdırmaq üçün vasitəçi və ya ev sahibi kimi çıxış edib. Bir neçə il öncə İslamabad ABŞ-Taliban danışıqları və Əfqanıstan məsələsində də vasitəçi rolunda çıxış etmişdi. Prosesin gedişində nəticə kimi 2020-ci ilin fevralında tərəflər arasında Doha sazişi imzalandı.

Pakistan İran ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərin normallaşması istiqamətində də vasitəçi olub. İslamabadın bu mənada ən tarixi missiyası 1970-ci ildə ABŞ-Çin yaxınlaşması istiqamətində həyata keçirdiyi fəaliyyəti olub. Bu prosesdə Pakistan gizli diplomatik kanal rolunu oynayıb. Məhz bu proses nəticəsində ABŞ prezidenti Riçard Niksonun Çinə tarixi səfəri baş tutub.

İndiki prosesdə isə vasitəçilik missiyası Türkiyə və Misir ilə birgə həyata keçirilib. Danışıqların İslamabadda keçirilməsi isə coğrafi baxımdan "neytral zona" xarakteri daşıyıb.

### Əsas gözlənti: Hörmüzə qarşı uran faktoru...

Görüşə cəmisi 1 gün qalmış siyasi texnoloqlar ortaya çıxacaq ssenariləri və ehtimalları dəyərləndirirlər. Bütün hallarda danışıqların bir raundla yekunlaşmayacağı fikrində hər kəs ortaqdır - sadəcə, danışıqların hansı axarla aparılması fərqli ehtimallar və ssenarilər üzərindən proqnozlaşdırılır. Vurğulandığı kimi, əsas proqnoz Pakistanda baş tutması planlaşdırılan danışıqların uzunmüddətli və mərhələli xarakter alması ilə bağlıdır. Vurğulanır ki, bu modeldə tərəflərin hər biri öz strateji "qırmızı xətləri"ni qorumağa çalışacaq və kompromislər yalnız taktiki səviyyədə mümkün olacaq. ABŞ üçün əsas prioritetlərdən biri enerji təhlükəsizliyi və beynəlxalq ticarət baxımından kritik əhəmiyyət daşıyan Hörmüz boğazı üzərindən sərbəst hərəkətin təmin olunmasıdır. Bu su yolunun açıq qalması yalnız Qərb üçün deyil, qlobal iqtisadiyyat üçün həyati əhəmiyyət daşıyır.

Digər tərəfdən, İran üçün əsas məsələ öz suverenliyini və xüsusilə nüvə proqramını qorumaqdır. Uranın zənginləşdirilməsi məsələsi uzun illərdir ki, tərəflər arasında əsas mübahisə predmetidir. Son geosiyasi dinamika göstərir ki, tərəflər bu iki predmet üzərindən müəyyən texniki və nəzarət mexanizmləri şərti ilə ortaq məxrəcə gələ bilərlər. Daha çox Qərb siyasətçiləri ABŞ-ın Hörmüz boğazında aktiv təmsilçilik (pay sahibi və ya azad, rüsumsuz keçid) qarşılığında uran məsələsində güzəşt edə biləcəyinə inanırlar. Onlar bu fikirlərini son günlər ABŞ adminstrasiyasının bu istiqamətdə "daha yumşaq" mövqe nümayişi ilə əlaqələndirirlər.

Lakin bu kompromis yalnız məhdud və şərti ola bilər - sirr deyil ki, İran üçün nüvə proqramı yalnız enerji deyil, həm də təhlükəsizlik məsələsidir. Bu isə razılaşmanı bir az daha çox mübahisələndirəcək.

Burada ən ciddi ziddiyyətli nöqtələrdən biri əsasən İsrailin tələbi kimi meydana çıxan raket sistemləri məsələləridir. Qeyd edək ki, bu şərt də Tehran tərəfindən qəbuledilməz sayılır. Bu isə danışıqların hər mərhələsində yeni gərginlik ocaqları yarada biləcək predmetdir. İranın bu məsələdə strateji geri çəkilmə ehtimalı aşağıdır - beləliklə məhz bu amilin danışıqları "uzanan, lakin idarə olunan gərginlik" halında inkişafını şərtləndirə biləcəyi proqnozlaşdırılır.

### Masada "stul sayı" arta bilər: İsrailin maraqlarına qarşı Livan "kartı"...

Ortada olan mübahisəli məsələlərdən biri isə İranın müttəfiqlərinə qarşı hərbi əməliyyatların dayandırılmamasıdır. İsrailin raket şərti qarşılığında danışıqlar prosesi "1-1" formatından "2-1" formatına transfer olunur. Bu məsələ də Tehran üçün qırmızı xəttdir. Xatırladaq ki, danışıqlara sayılı günlər qalmış Livanın İsrail tərəfindən bombalanması İran tərəfindən qəzəblə qarşılanmışdı və bu halda hətta danışıqların baş tutmama ehtimalı belə ortaya çıxmışdı. Bu mənada, danışıqlar prosesi "2-1" formatı şəklini alarsa, prosesə yalnız ABŞ və İran deyil, digər regional və qeyri-regional aktorlar da cəlb oluna bilər. İrəli sürülən ehtimallardan biri İranın Livan faktorunun danışıqlara daxil edilməsi tələbini ifadə edə biləcəyidir. Bu isə avtomatik olaraq Hizbullah məsələsini gündəmə gətirəcək. ABŞ üçün Hizbullah yalnız regional oyunçu deyil, həm də İsrailin təhlükəsizliyi baxımından birbaşa təhdid kimi qiymətləndirilir. Bu səbəbdən Vaşinqtonun bu məsələdə güzəştə getməsi demək olar ki, mümkün deyil. Beləliklə, tərəflərin gündəliyi genişləndikcə konsensus əldə etmək daha da çətinləşəcək.

Bu ssenaridə əsas risk kimi ABŞ-İran danışıqlarının əsas tezislərinin arxa plana keçmə ehtimalıdır. Regional rəqabət, ideoloji ziddiyyətlər və təhlükəsizlik dilemması prosesin uzanmasına və nəticəsiz qalmasına səbəb ola bilər. Nəticədə danışıqlar formal olaraq davam etsə də, real irəliləyiş əldə olunmaya bilər. Siyasətçilərin düşüncəsinə görə, bu dalan vəziyyəti yaradacaq və regionda qeyri-müəyyənliyi daha da artıracaq.

### Rusiya-Ukrayna modeli: nəticəyə hesablanan nəticəsiz danışıqlar...

Hər bir halda, danışıqların ikitərəfli formatda inkişafı ssenarisi üzərindən aparılan dəyərləndirmələr daha çoxdur - siyasi analitiklər danışıqlarda ABŞ-ın əvvəllər də tətbiq etdiyi formatdan istifadəsinin mümkünlüyünü irəli sürürlər - bu model müəyyən mənada Rusiya-Ukrayna müharibəsi dövründə tətbiq olunan diplomatik üsulları təkrarlaya bilər. Burada tərəflər birbaşa siyasi razılaşmadan əvvəl öz mövqelərini əks etdirən rəsmi sənədlər hazırlayır və bu sənədlər qarşılıqlı şəkildə mübadilə olunur. Bu yanaşmanın üstünlüyü ondadır ki, tərəflər emosional və siyasi ritorikadan uzaqlaşaraq texniki detallara fokuslana biləcəklər. Başqa sözlə, konkret məsələ ilə bağlı fərqli mövqelər hansısa ortaq nöqtədə uzlaşa bilər. ABŞ və İran tərəfindən formalaşdırılacaq nümayəndə heyətləri bu sənədlərin uyğunlaşdırılması üzərində işləyərək mərhələli razılaşma modelinə keçə bilər. Bu isə xüsusilə nüvə proqramı, sanksiyalar və regional təhlükəsizlik kimi mürəkkəb məsələlərdə daha real nəticələr verə bilər.

Analitiklər bu modelin də öz risklərini istisna etmirlər - ilkin sənədlər arasında fərqlər böyük olarsa, nəticə də Rusiya-Ukrayna danışıqları kimi "pat" vəziyyəti ala bilər. Bundan əlavə, daxili auditoriya faktoru da nəzərə alınmalıdır - ABŞ adminstrasiyası bu məsələdən qarşıdan gələn parlament seçkilərində maksimum arqument kimi istifadə etmək düşüncəsindədir. İran isə açıq döyüşdə uğradığı məğlubiyyəti masada qazana biləcəyi "qələbə" ilə kompensasiya etməyə çalışır.

### Razılaşma yeni geosiyasi reallıq vəd edir...

Nəticənin şəklindən və ştrixlərindən asılı olmadan, prosesin bəsit şəkildə yalnız "iki ölkə arasında razılaşma" kimi düşünülməsi də istisna olunur. İddia edilir ki, hər bir halda bu razılaşma qlobal siyasətə ciddi təsir göstərəcək - ABŞ ilə İran münasibətlərində yumşalma ehtimalı bütövlükdə beynəlxalq sistemdə güc balansına təsir göstərə bilər. Xüsusilə ABŞ-ın regionda hərbi və siyasi mövqelərinin güclənməsi Çin və Körfəz ölkələri üçün yeni çağırışlar yarada bilər. Hörmüz boğazında ABŞ-ın daha aktiv iştirakı enerji marşrutlarına nəzarət məsələsini yenidən gündəmə gətirəcək. Bu isə yalnız İran üçün deyil, həm də digər regional aktorlar üçün strateji narahatlıq mənbəyidir. Digər tərəfdən, İranın müəyyən güzəştlərə getməsi ABŞ-ın təsir imkanlarını gücləndirə bilər - bu dinamika isə klassik rəqabət müstəvisinin rəngini daha da qatılaşdıracaq. Politoloqların fikrincə, BMT TŞ-da Hörmüzlə bağlı qətnaməyə veto qoyaraq İranı "xilas edən" Çin ilə Rusiya belə bir nəticədən razı qalmayacaq. Səbəb kimi isə ABŞ-ın həm Çinə, həm də Rusiyaya yaxın coğrafiyada möhkəmlənməsi ön plana çəkilir - beləliklə, rəqabət iqtisadi sferadan daha fərqli müstəvilərə transfer oluna bilər.

### Uzun bir yol...

Göründüyü kimi, Pakistanda keçirilməsi planlaşdırılan görüş bütün hallarda həm qlobal mahiyyət daşıyır, həm də qlobal riskləri özündə əks etdirir. Ümumi mənzərə göstərir ki, bu prosesin qısa müddətdə tam və yekun razılaşma ilə nəticələnməsi ehtimalı aşağıdır. Daha real variant uzunmüddətli, mərhələli və çoxsəviyyəli (hətta çoxtərəfli) danışıqlar prosesidir.

*Pərviz SADAYOĞLU*

# "Pasxa atəşkəsi" elan edildi

Yaxın Şərqdə mövcud gərginlik fonunda Rusiya-Ukrayna müharibəsi daha da şiddətlənir. Hazırda Kiyevə müttəfiqləri tərəfindən hərbi dəstəyin azalması nəticəsində qarşı tərəf hücumlarını gücləndirib. Belə bir şəraitdə təxminən bir həftə əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski Pasxa bayramı münasibətilə atəşkəs təklif etmişdi. O, Vaşinqton vasitəsilə bu təklifi Moskvaya çatdırmışdı. O ümid etdiyini bildirmişdi ki, ABŞ Kiyev və Moskva arasında Pasxa atəşkəsi təklifini dəstəkləyəcək. Pasxa bayramı aprelin 12-dədir. "Ümid edirəm ki, ABŞ qətiyyətli qalacaq və Rusiyanı üçtərəfli görüşə qoşulmağa və sülh bağlamağa inandırmağa kömək edəcək. Mən bunu demişəm və bu gün də təkrar edirəm: biz Pasxa bayramı günlərində atəşkəs təklif etdik. Ümid edirik ki, ABŞ bunu dəstəkləyəcək. Biz Rusiyadan cavab gözləyirik", - deyə o söyləmişdi. Lakin ABŞ və Rusiyadan bu təklifə reaksiya olmadıqdan sonra Zelenski qarşı tərəfə enerji sektoruna hücumla bağlı qarşılıqlı atəşkəs təklif etmişdi. Lakin bu təklifə də heç bir reaksiya yoxdur.




## Putinin qərarı, Zelenskinin mövqeyi...

Lakin Ukrayna Prezidentinin məyusluğu fonunda Rusiya Prezidenti Vladimir Putin gözlənilmədən Pasxa bayramı münasibətilə atəşkəs elan edib. Bu barədə Kremlin yaydığı açıqlamada bildirilib ki, atəşkəs aprelin 11-i saat 16:00-dan (Bakı vaxtı ilə 17:00) aprelin 12-si gününün sonunadək qüvvədə olacaq. Vladimir Putin Rusiya Silahlı Qüvvələrinə atəşkəs müddətində hərbi əməliyyatları dayandırmağı, eyni zamanda, mümkün təxribatlara qarşı cavab verməyə hazır olmağı tapşırıb. Moskva Ukrayna tərəfinin də Pasxa atəşkəsi təşəbbüsünə qoşulacağını gözlədiyini açıqlayıb.

Rəsmi Moskva bu qərarı verməklə Kiyevin təklifi ilə deyil, özünün müstəqil şəkildə atəşkəs elan etdiyini nümayiş etdirir. Vladimir Putinin qərarına Ukrayna Prezidentinin cavabı özünü çox gözlətməyib. V.Zelenski ölkəsinin də buna uyğun addımlar atmağa hazır olduğunu bildirib. "Qarşılıqlı addımlar atmağa hazırıq. Bu il Pasxa bayramı zamanı atəşkəs təklif etmişdik və buna uyğun hərəkət edəcəyik. İnsanların təhlükəsiz şəraitdə Pasxa bayramını qeyd etməyə ehtiyacı var", - deyə Zelenski vurğulayıb.

Bəs bu atəşkəs danışıqlar prosesinin bərpasına təkan verə bilərmi? Ukrayna və Rusiya bu il artıq bir neçə danışıqlar raundu keçiriblər. Tərəflər atəşkəs barədə razılığa gələ bilməyiblər, çünki Rusiya Donbasın təslim edilməsini istəyir, Kiyev isə bunu rədd edir. "Reuters" agentliyinin isə öz mənbələrinə istinadən yaydığı məlumata görə, bugünlərdə Rusiya Prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyev hazırda ABŞ-da Donald Tramp administrasiyasının üzvləri ilə görüşlər keçirib. Tərəflərin Rusiya ilə Ukrayna arasında potensial sülh müqaviləsini, eləcə də Rusiya-Amerika iqtisadi əməkdaşlığını müzakirə etdiyi bildirilir. Agentlik qeyd edir ki, səfər Rusiya neft tədarükünün yumşaldılması tədbirlərinin başa çatması ərəfəsində baş tutub (11 apreldə bitir - red.). Məlumata görə, bu məsələ Moskva ilə Vaşinqton arasında danışıqların gündəliyinə daxil edilə bilər. İstisna deyil ki, ABŞ Moskvanın təkliflərinə Ukrayna ilə danışıqların bərpası şərti ilə razılıq verə bilər.

## Kiyev cəbhədə hərbi üstünlüyünü gücləndirməyə çalışır

Xatırladaq ki, bugünlərdə ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens Ukrayna nizamlaması istiqamətində ciddi irəliləyiş əldə olunduğunu və danışıqlar prosesinin başlanğıcından bəri Moskva ilə Kiyevin atəşkəs şərtləri ilə bağlı mövqelərinin xeyli yaxınlaşdığını bildirib. "Biz əhəmiyyətli irəliləyiş əldə etmişik. Əvvəlcə Rusiya və Ukraynanı münaqişəyə son qoymaq üçün heç olmasa nə istədiklərini ifadə etməyə inandıra bilmirdik. İndi buna nail olmuşuq. Ukrayna və Rusiyadan yazılı bəyanatlar almışıq, zaman keçdikcə onların mövqeləri daha da yaxınlaşır", - deyən Vensin sözlərinə görə, tərəflərin mövqeləri hələ tam uyğunlaşmasa da o, danışıqların perspektivinə nikbin baxır. Danışıqlar artıq "bu və digər istiqamətdə bir neçə kvadratkilometr ərazi ilə bağlı müzakirələrə" qədər irəliləyib. Rusiya Xarici İşlər Nazirliyinin (XİN) xüsusi tapşırıqlar üzrə səfiri Rodion Miroşnik də Moskvanın üçtərəfli danışıqların bərpa olunmasını yubatmayacağını bəyan edib.

Ukrayna Prezidenti Zelenski isə Kiyev və Moskva istisna olmaqla, Putinlə müxtəlif ölkələrdə görüş təklifi edib. Bununla belə Kiyev hesab edir ki, döyüş cəbhəsində hərbi üstünlüyün qazanılması danışıqlar prosesində də özünü göstərə bilər. Bu baxımdan, Ukrayna Prezident Ofisi Aparatının rəhbəri Kirill Budanov söyləyib ki, Rusiyanın neft terminallarına edilən hücumlar danışıqlar prosesinə təsir göstərir. Ukrayna növbəti danışıqlarda ruslardan çoxlu yeni fikirlər eşidəcək. "Rusiyaya hücumlar mütləq təsir göstərir. Bu, göz qabağındadır", - deyə Budanov Rusiya neft terminallarına edilən zərbələrin danışıqlar prosesinə təsir edib-etməməsi ilə bağlı suala cavab olaraq bildirib. O qeyd edib ki, bu zərbələr nəticəsində Rusiyanın mövqeyinin dəyişib-dəyişməməsi mübahisəli məsələdir: "Düşünürəm ki, Rusiya ilə növbəti danışıqlarda bir çox yeni şeylər eşidəcəyik. Hər halda, bu, mövqeyimizi əhəmiyyətli dərəcədə gücləndirir və onu, necə deyərlər, zəif etmir". Ukrayna rəsmisi deyib ki, Ukrayna qalib mövqeyini gücləndirmək üçün mümkün olan hər şeyi etməlidir. Məqsədə çatmaq üçün istənilən vasitə haqlı və düzgündür.

*N.BAYRAMLI*

# Yuvasını yandıran vulkan

## İvan Qonçarovun "Uçurum" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Vera Markdan aralı dura bilmir, başını götürüb yenə Volqanın qarşı yaxasına adlayır, rəfiqəsinə pənah aparır. Az keçmiş oradan Rayskiyə sevgi, dostluq ətirli, komplimentlə dolu məktublar gəlməyə başlayır. Sonradan məlum olur ki, zarafat məqsədli o məktubları Verayla keşiş arvadı növbəylə yazırmışlar. Məktubların birində onlar Boris Pavloviçi ehtiyacı olan bir nəfərə yardım göstərməyə çağırırlar, bu çağırışın müqabilində Rayski deyilən ünvana 220 rubl pul göndərir. Sonra bilinəcək ki, bu məktubdan Veranın xəbəri olmayıb, onu qızın adından Mark Voloxov yazıb. Bundan əvvəl onun Rayskiyə 80 rubl borcu vardı, özü də qızıl-qırmızı bəyan eləyirdi ki, borcunu qaytarmayacaq.

Bu vaxt antik qamətli Ulyananın ərini atıb getdiyi, fransız Şarla qoşulub paytaxta qaçdığı xəbəri yayılır. Zavallı Leonti fikir çəkməkdən xəstə düşür. Nənə Borisə məsləhət görür ki, dostunu gözdən-nəzərdən qıraq qoymasın, onu öz evinə köçürsün. Bu yandan da Rayski Peterburqdan məktub alır, Ayanov ona yazır ki, Sofya Belovodova italyan qrafla münasibətinə görə adına ləkə salıb, qraf isə məsələ yoğunlayanda aradan çıxıb Parisə gedib, sən demə, orada onun nişanlısı varmış.

Rayski uçurumun başında durub Veranın getdiyi səmtə həsrətlə baxanda birdən qız onun böyründə peyda olur. Veranın özünə bənzəri qalmayıb, deyir ki, onu bu hala Boris Pavloviçin öyüb göylərə qaldırdığı ehtiras salıb. Rayski ondan kimi sevdiyini soruşanda Vera yenə doğru cavabdan yayınır. Rayskiyə elə gəlir qız havalanıb, əvvəl Veraya xoşbəxtlik kimi dilədiyi yanğı, ehtiras indi onu qorxudur, artıq cilovunu qırmış həmin çılğın ehtiras Veranı daşdan-daşa çırpıb məhv eləməkdədir. Qız Rayskiyə yalvarır ki, əl-qolunu qandallayıb onu uçurumun altına buraxmasın. Di gəl, parol əvəzi güllə səsi eşidiləndə Vera böyük çətinliklə qohumunun əlindən çıxıb görüş yerinə qaçır.

Verayla Mark uçurumun ayağındakı köşkdə saatlarla gərgin söhbət eləyirlər. Onların söhbəti stoisizmlə anarxizmin (yaxud da epikürizmin) dialoqu kimi fəlsəfi mahiyyət daşıyır. Əlbəttə, Qonçarov bu parlaq səhnəni iki filosofun quru polemikası kimi yox, iki sevgilinin qızğın mübahisəsi kimi qələmə alıb, həm də mükəmməl işləyib. Vera borc, sədaqət, məsuliyyət anlayışının üstündə möhkəm durur, onun fikrincə, gerçək sevgi heyvani instinktlə yox, bu anlayışlarla əkizdir. Qız əbədi, ölməz məhəbbət arzusundadır. Voloxovsa heç bir borc, öhdəlik tanımır; o, Veranı gerçəkdən sevir, ona yalan danışmır, di gəl, onun həqiqəti yalandan da zəhərlidir. Əbədi məhəbbət, ömürlük sədaqət, xoşbəxt ailə ondan ötrü yalan, illüziyadır, din, nikah, kilsə, dövlət, qanun, mülkiyyət onda ən yaxşı halda istehza doğurur. Vera bir il ərzində sevdiyi oğlandan istədiyi qəhrəmanı yarada bilməyib. Mark isə bu müddətdə qızın ürəyinə girsə də, ağlını, iradəsini ram eləməyi bacarmayıb.

Rayski Veranın sevdiyi şəxsin kimliyini biləndə havalanmaq həddinə çatır. Səhərə qədər gözləyir ki, qızın gözlərinə baxsın. Halı özündə olmayan Vera evə çatanda huşunu itirir...

***

Beşinci hissədə Vera qohumuna Mark Voloxovla münasibətinin tarixçəsini danışır, xahiş eləyir ki, dediklərini nənəyə də çatdırsın. Marfanın doğum günündə Vera özündə güc tapıb qonaqların üzünə çıxır. Həmin gün Tuşin ona evlənmək təklifində bulunur; meşəbəyinin olub-keçənləri eşitdiyini düşünən Vera fürsətdən yararlanıb ürəyini onun ovcuna boşaldır, günahlarını boynuna alır.

Marfa məclisdən sonra gələcək qayınanasıgilə qonaq gedir. Rayski Verayla Markın qəziyyəsini nənəyə danışır. Tatyana Markovna havalanıb üç gün çölləri dolaşır, üçüncü gün bərk xəstələnir. Nənəsi yatağa düşdüyü vaxt Vera da azarlayıb qızdırma içində sayıqlayır. Nənə onun halından xəbər tutanda nəvəsinin başının üstünü kəsdirib ona özü qulluq, nəvaziş göstərir, onun tövbəsini qəbul eləyir, günahlarını bağışlayır.

Vera Markdan ikinci məktubu alır - sonuncu görüşdən sonra gələn birinci məktubun zərfi hələ də bağlıdır. Mark qızı görüşə çağırır, yazır ki, onunla evlənməyə hazırdır. Vera məsələni açıb Tuşinə də, nənəyə də söyləyir. Nənə onların görüşdüyü köhnə köşkü dağıtmaq əmri verir. Tuşin Veranın məktubunu Voloxova çatdırır, məktubda onların münasibətinə birdəfəlik son qoyulduğu bildirilir. Mark könülsüz də olsa buralardan çıxıb getməyə söz verir. Tezliklə Kozlov xəbər gətirir ki, Voloxov Novqorod quberniyasında yaşayan xalasının yanına köçmək, sonra da yunker rütbəsi alıb Qafqaza yollanmaq niyyətindədir.

Tuşin Veraya elçi düşmək istəyir, ancaq nənə Vera tam sağalanacan gözləməyi məsləhət görür. Şəhərdə söz gəzir ki, onlar tezliklə evlənəcəklər, fəqət Veranın bu söz-söhbətdən xəbəri yoxdur.

Rayski Verayla nənənin portretlərini tamamlayıb Vera haqqında romana başlayır, amma əsər üzərində iş epiqrafla ithafdan o yana keçmir. Onun beyninə yeni bir ideya girib - İtaliyaya gedib heykəltəraşlıq öyrənmək.

Beləcə, romanın finalı açıq qalır, biz Veranın Tuşinə ərə getməyimi, yoxsa nənəsi kimi ömürlük tənha qalmağımı seçəcəyini bilmirik. Rayskinin aqibəti də qaranlıqdır, otuz beş yaşdan sonra onun sənət möcüzəsi yaradacağı bəlkə də inandırıcı görünmür. Ancaq məsələ burasındadır ki, ilk romanı işıq üzünə çıxaranda Qonçarov özü də elə o yaşdaydı. Bundan on iki il sonra "Oblomov" kimi ədəbi möcüzə, üstündən daha on il keçmiş "Uçurum" adlı şedevr yarandı. Bəlkə bu işlərdə elə Qonçarovun tənbəl qəhrəmanının da əməyi var? Kim deyə bilər ki, bayaqdan səhifələrini dolaşdığımız bu roman elə Rayskinin yazmaq istədiyi həmin o roman deyil?..

***

Qonçarov deyirdi ki, bu romanın üç başlıca qəhrəmanı vür: Rayski, nənə, bir də Vera. Göründüyü kimi, müəllifin əsas heyətində Mark Voloxovun adı yoxdur. Turgenevdən fərqli olaraq o, yeni tip personajı, nihilisti, anarxisti özünün aparıcı qəhrəmanına çevirməyib - bu, həm də o deməkdir ki, Qonçarov bu tipajları dövrünün mütərəqqi lokomotivi, qabaqcıl ictimai generatoru saymırdı, onları xeyir qüvvətək görmür, onlara rəğbət bəsləmirdi. Əlbəttə, bunu deməklə mən oxucunu belə yaşarı, daim aktual əsərlərə sırf ictimai-fəlsəfi, sosial-siyasi yöndən yanaşmağa çağırmıram, əksinə, bir çox halda bu tip baxışlara qarşı çıxıram - izləyənlər bilərlər. Vulqar sosioloji metod adətən əsərin dərinliyinə varmağa (əlbəttə, əgər o dərinlik varsa) mane olur, səthi yanaşmaya arıb çıxarır. Biz Qoqol, Turgenev, Dostoyevski, Çexov, Balzak, Zolya, Kafka kimi dahi müəlliflərin əsərlərindəki dərinliklərin nisbətən dayaz mətnlərə hesablanmış arşınlarla ölçüldüyünü dönə-dönə görmüşük. Elə Qonçarovun özünün yaradıcılığına - "Oblomov" romanına da bu cür yanaşan az olmayıb. Mən bunu böyük qəbahət də saymazdım, adını çəkdiyim-çəkmədiyim müəlliflərin yaradıcılığından, əlbəttə, istənilən qədər sosial ideya, ictimai qənaət də çıxarmaq olar, bununla belə həmin qənaətlər hansısa əsərin alt qatlarına dalmağa əngəl törətməməlidir.

Bu baxımdan "Uçurum" romanının verdiyi mesajları da yazıldığı dövrlərin ictimai-fəlsəfi polemikaları kontekstində yozanlar olub, indi də var. Məlumdur ki, İvan Qonçarov mühafizəkar insan idi, dövlət işində çalışırdı, dinə, kilsəyə rəğbət bəsləyirdi, qərbçiliyin, sosializmin, liberalizmin hər cür ifrat təzahürünə qarşıydı, keçmişə, ənənəyə candan-könüldən bağlıydı. Ancaq onun Turgenevlə münaqişəsini sırf belə bir ictimai-siyasi müstəviyə çəksək, yəni "Uçurum"u yalnız konservatorlarla liberalların, xristianlıqla pozitivizmin, dinlə ateizmin ideoloji davası çərçivəsində nəzərdən keçirsək, üzdən getmiş olarıq. Kim nə deyir desin, Turgenevin nihilist qəhrəmanı Bazarov müəllifinin yaradıcılığı kontekstində müsbət obrazdır: təkcə ona görə yox ki, mühafizəkar dəyərlərə, köhnəliyə amansız savaş açır, yeniliyin alovlu tərəfdarı kimi ortaya çıxır; ilk növbədə ona görə ki, insan azadlığının Avropa ədəbiyyatında o vaxtacan misli-bərabəri görünməmiş yeni bir modelini - anarxist insan tipini ortaya qoyur. Bu, bir fəlsəfi inancdır, yazıçının bəşər cəmiyyətinin gələcəyinə yönəlmiş təklifi, layihəsidir. Bu layihənin mahiyyətini təxminən belə ifadə eləmək olar: fərdin başının üstünü kəsdirmiş hər növ ictimai təsisatı, hər cür zor alətini, xurafat mənbəyini aradan qaldırıb insanı mütləq azadlığına, asudəliyinə qovuşdurmaq, həzzi, şövqü, ehtirası həyatın mühərrikinə, hərəkətverici qüvvəsinə çevirmək, bu üsulla qorxunu, həyəcanı, xofu sıfıra endirmək.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm



Gərək bir də gedəsən.
İnanma ki bu boyda eşqin xatirəsini
Adi bir gediş silə.
Mən yadından çıxmaram
Alzeymer olsan belə.

Ayrılıq getmək deyil, ayrılıq ayrılıqdı,
Ayrılanda haçansa geri qayıtmaq üçün
bir ümid bəsləyərsən.
Getmə,
Gedəsi olsan, bütün günahlarımı
bağışlayıb gedərsən.

Xırda ağrını belə mənə
qıymayan gülüm,
Getsən, şəkillərimi tikə-tikə eləyib
çamadana yığarsan.
Yolüstü tullayarsan hamısını dənizə,
Məni öz əllərinlə
Yavaş-yavaş öldürüb,
Şəkil-şəkil boğarsan.

Adam bir vaxt sevdiyi adamı nə etsə də
birdən unuda bilməz.
Yavaş-yavaş unudar,
Aram-aram unudar.
Nə qədər söyləsə də “unutmaram”
unudar!
Desələr Alzeymersən,
İnanardım bəlkə də.
Fərqi yox,
Bilsəydim lap sözlərində yalan var.
Amma , gözümün nuru,
Məni unutduğuna
İnandıra bilmədi göndərdiyin adamlar.

***

Ay ölünü sevən qız, bilirəm,
çoxdu dərdin,
Sevgilinin ölməyi elə-belə dərd deyil.
Amma adam öyrəşir, sən də öyrəş,
birdənəm,
Üstündən az keçməyib,
az deyil beş-altı il.

Adamlar belədir də, incitdiyi adamı
Həmişəlik itirib yollarına baxarlar.
Ağlamağına ağla, amma,
qurban olduğum,
Ölünü sevməzlərə, ölüyçün darıxarlar.

Görünən mənəm,
sənsə ancaq onu görürsən,
Adam hüznün önündə
aciz qalmasın gərək.
Kaş bir gün mən də ölsəm,
ovucunun içindən,
Mən də süzülüb getsəm
məzarlıq torpağıtək.

Gözünü çək bu yoldan,
səni sevənləri gör,
Qayıdıb gəlməyəcək,
nə ümid bəsləyirsən?
Əcəb yaxşı bilinir ölənlərin qiyməti,
Məni sevəsən deyə
mən də ölüm deyirsən?

Boğazıma yığılır qısqanclığın əzabı,
İçimdən parça-parça parçalanıb
gülürəm.
Bax indi necə deyim necə darıxdığımı?
Sən ölünü sevirsən,
mən səninçün ölürəm.

***

Bəlkə də sondur bu gün,
Görüşünə gəlmişəm,
Ayrılsaq söymə məni,
Elə bil ki ölmüşəm.

Göz yaşı təsir etməz,
Ayrılığın qəlbi yox.
Gələn çox yaxşı olar,
Gəlməsən də eybi yox.

Yadıma düşəcəksən
Darıxmaq güc gələndə.
Susamış navalçalar
Payızı gözləyəndə.

Bilirəm çox çətindi
Yoxluğuna alışmaq.
Adamı əldən salır
Unutmağa çalışmaq.

Qapı-qapı gəzərsən,
Təsəlli axtararsan:
“Yanımda olmasan da
Əsas odur ki varsan.”

Gülürəm öz səhvimə,
Budur məni güldürən.
Mən uşaqlıq səhvimi
Böyüyüb düzəldirəm.

Özüm də bilmirəm ki
Buna səbəb kim oldu.
Mənim səhvim sən deyil,
Səni sevməyim oldu.

Ya da ki sevməməyim.
Sevməmişəm sən demə.
Etiraf edirəm: mən
Bağlanmıram heç kimə.

Necə fikirləşirsən,
Yalvaracam bu yaşda?
Səndən üzr istəmirəm,

Sən yenə də bağışla.







*Ümid Abbas Nihani*

Mən indi anladım, hər bir adamın,
Ən az özü boyda ağrısı varmış.
Gecə işıq gələn pəncərələrin,
Hərəsi bir dərdi pıçıldayarmış.

Bir işıq boğulur göz yaşlarında,
O sönməz, həsrətlə yanırsa hər gün.
Bir işıq yarasın yuyub bağlayır,
Bir işıq darıxır anası üçün.

Bir işıq nə vaxtsa bir günah edib,
Vicdanı sızlayır illər uzunu.
Bir işıq yadından çıxara bilmir,
Uşaqlar evində qalan qızını.

Bir işıq ərinin zərbələrindən,
Qaçmaq istəyir ki yara almasın.
Bir işıq bətnində ölən körpənin,
Qanını yuyur ki görən olmasın.

İşıq var yağışa boylanıb baxır,
İllərin ən uzaq fəsillərindən.
İşıq var gözünün yaşını silir,
Ölən atasının şəkillərindən.

Bir işıq həyatda tək qalıb yanır,
Başqa bir işıqdan təsəlli gəlmir.
Paltarı ütüsüz gəzən adamlar,
Gecələr işığı söndürə bilmir.

Bir işıq qorxudu, bir işıq ümid,
Bir işıq həsrətdi, bir işıq kədər.
Hər işıq taleyi önündə quldu,
Sürünür yanandan sönənə qədər.

***

Unutmaq asan deyil,
Məni unutmaq üçün gərək
bir də sevəsən,
Gərək bir də ayrılıb,
Bir də nifrət edəsən,

# Ədəbiyyatın musiqisi

## Sakit okeanda da səslənir, “Şimal buzlu”da da...

Bir balaca ada dövləti öz şairi ilə fəxr edir. Şair isə okeanın ortasında, dünya xəritəsində görünməyəcək dərəcədə kiçicik bir adanın varlığından ruhlanaraq öz sərhədlərini aşır və bu balaca adanı daha böyük dünyaya tanıdır. Ona israrla ingilis dilində yazmağı tövsiyə etsələr də, o öz anasının dilində əsrarəngiz şeirlər yazmaqda israr edir. Məsələn:

*“Dəmir ağacın,*
*həyat ağacının budaqları arasında,*
*mənim adamın üzərində,*
*ağarmış sıldırımların zirvəsində,*
*donub qalmış leysan buludlar asılıb...”*
*(sətri tərcümə)*

Bax belə, kiçicik adasını “balaca” dilində elə vəsf edir ki, ana yurdunu tanıtması hər cür reklam çarxından, turizm şirkətlərinin səyahət təkliflərindən daha tutarlı nəticə veirir.

Derek Elton Uolkot Ədəbiyyat sahəsində Nobel mükafatı alan (1992) ikinci qara dərili şair və dramaturqdur. İosif Brodski onun dünyaya gəldiyi və əsərlərində məhəbbətlə söz açdığı kiçik adası, Sent-Lüsiya haqqında deyirdi: “Bu torpağı Kolumb kəşf etdi, britaniyalılar müstəmləkəyə çevirdi, Uolkot isə ona ölməzlik qazandırdı”.

Bu yaxınlarda futbol üzrə Azərbaycan yığma komandası “çırtdan ada ölkəsi” Sent-Lüsiya milli komandası üzərində inamlı qələbə qazandı. Uzun fasilədən sonra, yerli baş məşqçi ilə, məğlubiyyətlərdən usanmış heyətlə kiçicik bir futbol uğuru əldə edildi. Bu qələbə bizim futbol həvəskarları tərəfindən nə qədər qəribə, ironik qarşılansa da, hər halda qələbə idi. Azarkeş şərhlərində kiçik adanı dünyaya tanıdan, “bahalı transfer”lərlə ad çıxaran bir neçə Sent-Lüsiya futbolçusunun adı da çəkildi. Lakin bu ada ölkəsi hələ də Derek Elton Uolkotla tanınır...

Əlli ildən çoxdur, güman edilir ki, getdikcə “kiçik” ədəbiyyatlar, daha kiçicik dillər, yəni anadilli ədəbiyyatlar, lokal dünyalardan qopub yaranan mətnlər böyük ədəbiyyat aləmini daha tez-tez fəth edəcək. Buna inanmaq bir qədər çətindir...



*Məqsəd Nur*

İkinci Dünya Müharibəsindən sonra yaranmış bu kimi ümidlər özünü o qədər də doğrultmur. Düzdür, Avropa keçmiş müstəmləkələrinin yerli ədəbiyyatına geniş qapılar açır, oralardakı “balaca dünyaları” mətnin gözü ilə görmək istəyir, bəzən bunu həddən-ziyadə şişirdib ictimai əhəmiyyət həddinə də çatdıra bilir. Üstəlik, lokal coğrafiyaların ədəbiyyatı hələ də öz cəlbediciliyini saxlayır...

Ədəbiyyatn sərhədləri hüdudsuzdur. Turizmə, siyasətə, dil və mənəvi varlığa, dəyərlərin tanınmasına təkan verib uzun illər davamlı təsirə malik ola bilir. Ana dilində yazmaq isə azdır, gərək onu tanıda biləsən. Deyirlər, müasir dünyada, informasiya boğuculuğunda ədəbiyyat və incəsənəti tanıtmaq üçün mütləq onun hamisi olmalıdır. Görəsən, “Mədəniyyət - 2040” konsepsiyamız ətrafında gedən müzakirələrdə hamilik məsələlərinə kiçik ada ölkəsi kompleksi ilə yanaşılması bizi heç olmasa Xəzərin o tayına aparıb çıxara bilərmi?

Ədəbiyyatımızın varlığı az qala siyasi coğrafiyamızın varlığı ilə yaşıddır. Axı belə bir Ədəbiyyata kim deyə bilər, sənin sərhədlərin oradan yox, buradan başlayır? Lakin bəzən öz coğrafiyana kiçik bir ada kimi baxmağa başlayandan sonra da genişlənmək mümkündür. Eynən Derek Elton Uolkotun mətnlərində olduğu kimi. Nəhəng okeanın ortasında balaca təknə kimi yırğalanmaqdan doğulan musiqili mətnlərlə...

Bəlkə, bu qədər toy-büsatın içində musiqimiz çatmır?

*Yeganə BAYRAMOVA*

# Səssiz başlayan təhlükə...

## Parkinson beyni necə dəyişir?

Parkinson ilk baxışda sadəcə əl titrəməsi kimi görünə bilər. Amma xəstəlik əslində beynin dərinliklərində baş verən mürəkkəb bir prosesin nəticəsidir. İnsanın hərəkətlərini yavaşladır, bədəni sərtləşdirir və həyatın ritmini dəyişir. Parkinson xəstəliyi dopaminlə əlaqə quran hüceyrələrin yüzdə 80-nin itkisi ilə ortaya çıxır. Dopamin beyin hüceyrələri arasında elektrik rabitəsini təmin edən maddələrdən biridir. Dopaminlə işləyən beyin hissəsi hərəkətlərimizi məqsədəuyğun şəkildə tənzimləməyə imkan verən bölgədir.

Xəstəliyə daha çox yaşlılar arasında rast gəlinir, lakin son illər bütün dünyada xəstəliyin əlamətləri ilə daha erkən-40, hətta 35 yaşda da üzləşmək mümkündür.

Yeri gəlmişkən, hər il aprelin 11-də Dünya Səhiyyə Təşkilatının (DST) təşəbbüsü ilə Parkinson Xəstəliyi ilə Mübarizə Günü kimi qeyd edilir. Həmin günün keçirilməsi xəstəlik barədə ictimaiyyətin məlumatlılığını artırmaq, xəstələrə və onların ailələrinə dəstək olmaq, həmçinin, onun nəticələrini aradan qaldırmaq məqsədi daşıyır. Bu tarix təsadüfən seçilməyib. Belə ki, xəstəliyi təsvir edən ingilis alimi və tədqiqatçı Ceyms Parkinson 1755-ci il aprelin 11-də dünyaya gəlib. XIX əsrin əvvəllərində alim xəstəliyi “titrəyən iflic” adlandırıb.

**Xəstəliyin simptomları**

Parkinson xəstəliyindən əziyyət çəkən insanların beynindəki dəyişikliklər hərəkətlərin əvvəlkindən daha az olmasına səbəb olur. Bu, nitqdə və ünsiyyətdə problemlərə səbəb ola bilər. Xəstəliyin əsas simptomları bunlardır: Tremor-əsmə, hərəkətin yavaşlığı, əzələ sərtliyi, balans problemləri, qoxu itkisi, nevralgiya, sidik ifrazı ilə bağlı problemlər və qəbizlik.

**Kişilərdə daha çoxdur**

Parkinson Fondunun məlumatlarına görə, bütün dünyada Parkinson xəstəliyi ilə mübarizə aparan insanların sayı artıq 10 milyonu keçib. Məlumatlar göstərir ki, kişilərdə xəstəliyə yoluxma qadınlara nisbətən 1,5 dəfə çoxdur. Bundan başqa, xəstəliyə yoluxanların əksəriyyəti 60 yaşdan yuxarı insanlardır.



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, Parkinsonda əlillik və ölüm riski digər nevroloji xəstəliklərlə müqayisədə daha sürətli artır. Xəstəlikdən ölənlər 2019-cu ildə 2000-ci illə müqayisədə 100 faiz artaraq 329 min nəfərə çatıb.

Aclıq, iqlim dəyişikliyi və xəstəlik kimi qlobal problemlərə dair elmi məlumatları dərc edən “Our World in Data” internet saytının məlumatına görə, Avropa qitəsi 2019-cu ildə Parkinson xəstəliyindən ölüm hallarının ən çox baş verdiyi yerlər sırasındadır. Yunanıstan “Parkinson xəstəliyindən ən çox ölən Avropa ölkəsi” olaraq qeydə alınıb.

**2030-cu ilə qədər...**

2019-cu ilin məlumatlarına görə, Yunanıstanda hər 100 min nəfərə 25,2, İslandiyada 15,6, Finlandiyada 15,4, Almaniyada 15,1, İtaliyada 13,9, Albaniyada 12,8, Böyük Britaniyada 12,7, Hollandiyada 12,4, Belçikada 12,3 və Avstriyada 12,32 nəfər düşür.

Bu göstərici Yaponiyada 11, ABŞ-da 10,5, Avstraliyada 8,1 olub. Rusiyada Parkinson xəstəliyindən ölüm halları digər ölkələrlə müqayisədə 100 min nəfərə 6,4 nəfər düşür.

Mütəxəssislər xəstəliyə yoluxma və ölüm hallarının sayının artmasını demoqrafik artımla yanaşı, orta ömür müddətinin uzanması ilə əlaqələndirirlər. ABŞ-da hər il 90 min insan Parkinson xəstəliyinə tutulur. Bu ölkədə Parkinson xəstələrinin sayının 2030-cu ilə qədər 1,2 milyona çatacağı təxmin edilir.

ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin (CDC) məlumatına görə, xəstəlik, ABŞ-da ölüm hallarının 14-cü səbəbi arasındadır.

**Erkən aşkarlanma kömək edə bilər...**

Parkinson xəstəliyi sinir hüceyrələrinin ölümü səbəbindən meydana gələn xroniki bir nevroloji xəstəlikdir. Xəstəliyin şiddəti və simptomları insandan insana dəyişə bilər, lakin dərmanlar, cərrahi müdaxilələr və həyat tərzi dəyişiklikləri xəstəliyin müalicəsində istifadə olunan əsas müalicələrdir. Erkən aşkarlama və müalicə xəstəliyin simptomlarını idarə etməyə və xəstələrin gündəlik həyatını asanlaşdırmağa kömək edə bilər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5222
Sifariş: 468
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova